QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 014 (6214) 23 yanvar 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# Ən çətin sınaqlardan çıxan qardaşlıq birliyi - iki dövlət, bir millət!

Bax 2



*Prezident İlham Əliyev: "Bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq"*

## Ceyhun Bayramov gürcüstanlı həmkarı ilə telefonla danışıb



Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstan xarici işlər naziri David Zalkaliani arasında telefon danışığı baş tutub. Nazir Ceyhun Bayramov gürcü həmkarının eyni zamanda Gürcüstan baş nazirinin müavini vəzifəsinə təyin edilməsi münasibəti ilə səmimi təbriklərini çatdırıb ... Bax 5

## Zakir Həsənov Böyük Britaniya səfiri ilə görüşüb

Bax 4



Yanvarın 22-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Ceyms Şarp ilə görüşüb.

## İşğaldan azad olunmuş ərazilərə nə qədər pul xərclənəcək?



Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Bloomberg" agentliyinə müsahibə verib. SİA xəbər verir ki, nazir müsahibəsində Azərbaycanda koronavirusla bağlı iqtisadi vəziyyət və ölkəmizin torpaqlarını işğaldan azad etdiyi Vətən Müharibəsinin nəticələrini dəyərləndirib. "Azərbaycan iqtisadiyyatı koronavirusa görə... Bax 4

## Fevralın 1-dən tədris və təlim-tərbiyə prosesi mərhələli şəkildə əyani formada təşkil olunacaq

Bax 5



## Anar Kərimov: Xudavəng monastırından səkkiz əsrlik freskaların aparılması böyük cinayətdir

Bax 4



*Ermənilər tərəfindən Xudavəng monastırından 8 əsrlik freskaların aparılması, şübhəsiz ki, böyük cinayətdir. Biz dəfələrlə həm UNESCO, həm də digər beynəlxalq təşkilatlar...*

## Lilit Qalstyan: "Bu, Ermənistanın faciəsidir, Nikol dövləti oğurladı, qurumlar işləmir"

Bax 9



Nikolda daha çox cəhalət və ya fanatizm olduğunu söyləməkdə çətinlik çəkirəm və əslində, bunların hamısı, həm də az savadlı cəmiyyəti çaşdırmaq istəyi onun əsas silahı, komandasının əsas üslubudur...

## "Ermənilər bu dəfə əsgərlərimizin qəhrəmanlıqlarını oğurladılar"



Bax 9

## Şuşa və digər azad olunmuş ərazilərə avtobus reysləri açılır




Bax 5

## Messini bağışlamadılar




Bax 16

# Ən çətin sınaqlardan çıxan qardaşlıq birliyi - iki dövlət, bir millət!

*Prezident İlham Əliyev: "Bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq"*



### Rəcəb Tayyib Ərdoğan: "İlham qardaşıma zəng edib deyirlər ki, yanınızda kimin olduğunu bilirik"

Bəli, bu dünyada analoqu olmayan qardaşlığın, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" tezisinə əsaslanan reallığın təcəssümüdür. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərləri çərçivəsində səsləndirilən fikirlər və imzalanan çox sayda sənədlər bir daha dünyaya nümayiş etdirir ki, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və böyük geosiyasi və geoiqtisadi potensiala malik bu iki ölkənin strateji əməkdaşlığı regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə, habelə bölgədə iqtisadi inkişafın daha da gücləndirilməsinə yönəlmişdir. Bu gün hər iki dövlət yaxşı gündə də, pis gündə də bir-birinin yanındadır, hər iki dövlət eyni yolu yaşayır.

### Azərbaycan və Türkiyə Prezidentləri arasında telefon danışığı bunun təsdiqidir

Yanvarın 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Telefon söhbəti zamanı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi, əməkdaşlığımızın daim genişləndiyi bir daha vurğulanıb. Prezident İlham Əliyev Türkiyə Prezidentini işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işlərinin başlanması barədə məlumatlandırıb və artıq bu işlərdə Türkiyə şirkətlərinin fəal iştirak etdiyini məmnunluq hissi ilə qeyd edib, bunun ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsi işinə xidmət etdiyini bildirib.

Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısına məlumatına görə minnətdarlığını bildirib və öz növbəsində, Türkiyə şirkətlərinin Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında bərpa və yenidənqurma işlərində iştirakından məmnunluq ifadə edib.

Dövlət başçıları Ağdamda Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin tezliklə fəaliyyətə başlamasından danışıb, bu Mərkəzin fəaliyyətinin uzunmüddətli sülhün təmin olunması işinə xidmət edəcəyini bildiriblər. Türkiyə Prezidenti bundan sonra da ölkəsinin Azərbaycana dəstək verəcəyini vurğulayıb. Dövlətimizin başçısı bununla bağlı təşəkkürünü bildirib.

Göründüyü kimim, bu danılmaz faktordur ki, ortaq kök, dil, din birliyi, oxşar mədəniyyət, adət və ənənələri olan Azərbaycan ilə Türkiyə arasında əlaqələr nə dünənə, nə də bu gün olub. Türkiyə və Azərbaycan öz tarixlərinin ən mürəkkəb dövrlərində bir-birinə dəstək olduqlarını nümayiş etdirmişlər. Belə ki, 1918-ci ildə Nuru Paşanın komandanlığı ilə Türk Qafqaz İslam Ordusunun uzun mübarizələr və müharibələr nəticəsində Bakını xilas etməsi Azərbaycan üçün önəmli dönüş nöqtəsi idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dediyi kimi: "Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. Azərbaycan xalqı həmin ağır dövrdə türk xalqının ona göstərdiyi köməyi heç vaxt unutmayacaqdır".

Bu gün isə Ermənistanın təcavüzkar siyasətinə qarşı mübarizəsində Türkiyə qardaş dövlətin Azərbaycanla həm cəbhədə, həm də diplomatik səviyyədə mübarizədə yanında olması, 44 günlük İkinci Vətən Müharibəsinin qələbəsindən sonra da bu qardaşlığın hər gün, hər an daha da möhkəm olmaqdadır. Ancaq bu qardaşlığa qısqanclıqla yanaşan bəzi dövlətlər bilməlidir ki, bu birlik iki qardaşın - Azərbaycan-Türkiyənin dəmir siyasət birliyidir!

### Rəcəb Tayyib Ərdoğan: "Bəzi amerikalılar İlham qardaşıma zəng edib deyir: "Biz sizin yanınızda kimin yer aldığını bilirik, Ərdoğan var, Türkiyə var. Biz Türkiyəyə də lazım gələrsə, sanksiya tətbiq edərik"

Bəli, hər bir vaxt belə olub, hər iki dövlət başçıları bu qardaşlığı, bu birliyi bütün sahələrdə göstərib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hakim Ədalət və İnkişaf Partiyasının (AKP) Malatya vilayətində keçirilən toplantısında çıxışında bildirib: "Bəzi amerikalılar İlham qardaşıma zəng edib deyir: "Biz sizin yanınızda kimin yer aldığını bilirik, Ərdoğan var, Türkiyə var. Biz Türkiyəyə də lazım gələrsə, sanksiya tətbiq edərik". Sən kiminlə oynadığının fərqində deyilsən. Sanksiya tətbiq etmək istəyirsənsə, et, gecikdirmə. "F-35" üçün addım atdıq, bizi təhdid etdiniz. ""S-400"ləri Rusiyaya geri göndərin" dediniz. Biz qəbilə dövləti deyilik. Biz Türkiyəyik, Türkiyə! Dünyanı yaşanmaz hala gətirən qüvvələr oyunlarını pozduğumuza, gerçək üzlərini ortaya çıxardığımıza görə bizi hədəf taxtasına qoyublar. Qoysunlar, dayanmaq olmaz, yola davam!".

Prezident İlham Əliyev: "Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu"

Prezidenti İlham Əliyev Türkiyənin "Haber Türk" televiziya kanalına müsahibəsində Azərbaycanın ən çətin günündə Türkiyə dövlətinin misilsiz dəstəyinin olduğunu deyərək bildirib ki, bu iş bitsin, ərazi bötgvlüyü bərpa edilsin qardaş dövlətimiz arasında yeni dövr başlayacaq: "Qoy, bunu həll edək, bu iş bitsin, ərazi bütövlüyümüz bərpa edilsin, ondan sonra Azərbaycanın yeni dövrü başlanacaq, bölgənin yeni dövrü başlanacaq, güclər nisbəti dəyişəcək və hesab edirəm ki, Türkiyə və Azərbaycanın gücü daha da möhkəm olacaq".

"Bu gün Türkiyə bölgədə və yeni coğrafiyada çox önəmli sabitləşdirici rol oynayır. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğanın bu toqquşmaların ilk saatlarında verdiyi dəstək sabitliyi qorudu",- deyən Prezident İlham Əliyev onu da vurğulayıb ki, çoxları bunu anlamırlar: "Bəziləri bəlkə bunu anlamırlar. Əgər o sözlər olmasaydı, əgər mənim qardaşım deməsəydi ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır, bəlkə də burada vəziyyət qarışardı. Bəlkə də başqa kimsə burada, necə deyərlər, bulanıq suda balıq tutmağa çalışacaqdı. Ona görə bundan sonra bu bölgədə biz yeni bir strateji mənzərə, strateji baxış yaratmalıyıq. Artıq bu barədə düşünməyə başlayırıq, ancaq hadisələri qabaqlamaq istəmirik". Budur, çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti.

Rəcəb Tayyib Ərdoğan: "Ermənilərin qədim Azərbaycan torpağı Qarabağın işğalına qarşı kor, kar, lal qalanların bu gün sərgilədikləri duruş ikiüzlükdür"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə Böyük Millət Məclisinin (TBMM) iclasında Azərbaycan torpaqlarına Ermənistanın təcavüzü barədə danışarkən bildirib ki, ermənilərin qədim Azərbaycan torpağı Qarabağın işğalına qarşı kor, kar, lal qalanların bu gün sərgilədikləri duruş ikiüzlülükdür: "İşğalçılara səssiz qalan, vətənini qoruyanı isə suçlayanların sözünün bizim üçün heç bir dəyəri yoxdur. Bu alçaq oyun pozulur. Qalıcı sülhün yolu Ermənistanın işğal etdiyi hər qarış Azərbaycan torpaqlarından geri çəkilməsindən keçir".

Türkiyə Prezidenti bir daha Azərbaycanın yanında olduqlarını vurğulayıb: "Bunu burada bir daha bildirmək istərdim. Türkiyə bu günə qədər olduğu kimi, bundan sonra da Azərbaycanın yanında olacaq. TBMM olaraq Azərbaycanın yanında olduğumuz bir daha bildirildi. Ermənistan işğal etdiyi ərazilərdən çıxarılmalıdır".

Bəli, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz!

### Qələbə Zəfərində - İki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan

Qeyd edək ki, hər zaman olduğu kimi, Azərbaycanın Qələbə Zəfərində də "Bir millət, iki dövlət", iki qardaş liderlər qələbə münasibətilə bir-birini təbrik etdi. Noyabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı zamanı dövlət başçıları Qarabağ müharibəsində Azərbaycanın qazandığı parlaq qələbə münasibətilə bir-birini təbrik ediblər. Prezident İlham Əliyev müharibə dövründə Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığını bildirib. Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin ölkəsinin dəstəyinə verdiyi yüksək qiymətə görə təşəkkür edib. Azərbaycan və Türkiyə prezidentləri dost və qardaş ölkələrimiz və xalqlarımızın bundan sonra da bir-birinin yanında olacağını bildiriblər.

### Prezident İlham Əliyev: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq"

"Haber 7" Azərbaycan Prezidenti İlham Əliyevin "Fox News"-a müsahibəsini "Möhtəşəm dostluğumuz üçün qürur duyuruq" başlığı ilə manşetdə yer verib. Azərbaycan liderinə Türkiyəni haqsız suçlamalar qarşısında müdafiə etdiyinə görə təşəkkür edilib.

Türk saytı Prezident İlham Əliyevin amerikalı jurnalistin təxribatçı suallarına peşəkarlıqla cavab verdiyini bildirib: "Azərbaycanın haqlı mübarizəsini bir daha dünyaya eşitdirən Əliyev müxbirin təxribatçı suallarına verdiyi cavablarla gündəmə gəlib. Bölgədə aparılan əməliyyatlar ətrafında informasiya çirkabı yaratmağa çalışan "Fox News"un müxbiri Türkiyəni Azərbaycanla birgə əməliyyatlarda iştirak etməkdə ittiham etdi. Anti-Türkiyə fikirlərə keçid etməyə qoymayan Azərbaycan Prezidenti İlham Əliyev Amerika kanalına siyasət dərsi verdi. Azərbaycan lideri Türkiyənin Dğlıq Qarabağda problem yaratdığını deyən "Fox News" müxbirinin iddiasını kəskin şəkildə rədd etdi. Dedi ki, Türkiyə bizə siyasi dəstək verir, onlar bizim dostumuz və müttəfiqimizdir. Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".

Bəli, bu gün ikigüclü ölkənin lider rəhbərlərinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Pezidenti İlham Əliyevin dəmir siyasəti daha da möhkəmlənəcək, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq GÜCLƏNƏN BİR AZƏRBAYCAN, GÜCLƏNƏN BİR TÜRKİYƏ VARDIR! Qarabağ Azərbaycandır! Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!".

**RƏFİQƏ KAMALQIZI**

# "Azərbaycan Prezidenti status məsələsini tarixin zibilliyinə yollayıb"

## *Azərbaycan XİN Avropa Parlamentinin qəbul etdiyi qətnaməyə münasibət bildirib*

***İlk növbədə onu vurğulamaq istərdim ki, bu il yanvar 20-də Avropa Parlamentinin (AP) qəbul etdiyi illik doktrinal və hüquqi təsirə malik Ümumi Xarici və Təhlükəsizlik Siyasətinin tətbiqi barədə qətnamə və 2021-ci il üçün yol xəritəsi sayılan bu hesabat sənədində növbəti dəfə Şərq Tərəfdaşlığı ölkələrinin (o cümlədən Azərbaycanın) beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə Aİ-nin dəstəyi birmənalı şəkildə əks olundu.***



Bəzi ermənipərəst dairələrinin səylərinə baxmayaraq, 44 günlük Vətən müharibəsindən sonra Avropa İttifaqının Azərbaycanın və digər Şərq Tərəfdaşlığı ölkələrinin ərazi bütövlüyünün və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına dəstəyə dair mövqeyində hər hansı dəyişiklik baş vermədi.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayevanın KİV-in Avropa Parlamentinin qəbul etdiyi qətnamə ilə bağlı sualına cavabında yer alıb. Leyla Abdullayeva daha sonra bildirib: "Sənəddə, həmçinin qeyd edilir ki, Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən 10 noyabr tarixində imzalanmış üçtərəfli bəyanat müsbət qarşılanır, gələcək sülh üçün bu razılaşmanın daha yaxşı perspektivlər açacağına ümid ifadə olunur. Burada, mülki əhalinin öldürülməsi, mülki infrastrukturun dağıdılması, kasetli döyüş sursatlarından istifadə pislənir və bu xüsusda həm Ermənistan, həm də Azərbaycana çağırışlar edilir. Sənəddə məcburi köçkünlər və qaçqınların evlərinə geri qayıtması, ehtiyacı olanlara humanitar yardımın göstərilməsi, habelə müharibə cinayətlərinə məsul olanların qanun qarşısında cavab verməsi kimi məsələlər əks olunub.

Bir sözlə, Avropa Parlamenti qətnamədə Şərq Tərəfdaşlığı ölkərindəki münaqişələrlə bağlı bütün məsələlərin həllini məhz beynəlxalq hüquq əsasında, ilk növbədə, isə ŞT ölkələrinin beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüklərinin Aİ tərəfindən qətiyyətli dəstəklənməsi əsasında həll edilməsinin vacibliyini son 4 ildə olduğu kimi bir daha vurğulayıb.

O ki, qaldı qətnamədə əks olunmuş bəzi əsassız və gecikmiş məqamlara, onlara aydınlıq gətirmək istərdik. İlk növbədə, bölgənin gələcək statusu və Dağlıq Qarabağın erməni əhalisi və irsinin təhlükəsizliyinin təmin olunması məsələsi ilə bağlı mövqeyimiz bəllidir və birmənalı şəkildə dəfələrlə ifadə olunub. Bu mövqe ilə tanış olmayan AP üzvlərinin diqqətinə bir daha çatdırırıq ki, Azərbaycan Prezidenti status məsələsini tarixin zibilliyinə yollayıb, erməni əhalisinin və irsinin təhlükəsizliyinə gəldikdə isə, Azərbaycan ərazisindəki bütün vətəndaşların hüquqları etnik mənsubiyyətindən və dinindən asılı olmayaraq Azərbaycan Konstitusiyası ilə təmin olunur, tarixi-mədəni abidələr isə dövlət səviyyəsində qorunur.

Qətnamədə qardaş Türkiyə ilə bağlı əsassız iddialar əks olunub, həqiqəti əks etdirməyən qərəzli fikirlərə yer verilib. Vurğulayırıq ki, Türkiyə bölgənin aparıcı ölkələrindən biridir, bölgədə sülh və təhlükəsizliyin təmin olunmasında maraqlıdır və bu xüsusda müstəsna rol oynayır".

---

### Türkiyə XİN: Azərbaycan ilə Türkmənistan arasında imzalanan Anlaşma Memorandumunu məmnuniyyətlə qarşılayırıq

Azərbaycan ilə Türkmənistan arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanmasını məmnuniyyətlə qarşılayırıq. AZƏRTAC xəbər verir ki, bu ifadələr Türkiyə Xarici İşlər Nazirliyinin mövzu ilə bağlı açıqlamasında əksini tapıb.



SABAH SON DAKİKA GÜNDEM EKONOMİ YAŞAM SAĞLIK DÜN

Haberler > Dünya Haberleri > Dışişleri Bakanlığı'ndan Hazar Denizi'nde 'Dostluk' anlaşması açıklaması

**Dışişleri Bakanlığı'ndan Hazar Denizi'nde 'Dostluk' anlaşması açıklaması**

Dışişleri Bakanlığı, Azerbaycan ve Türkmenistan'ın 'Dostluk' adı verilen Hazar Denizi'nde hidrokarbon sahasını ortaklaşa araştırmak ve geliştirmek için vardığı anlaşmanın memnuniyet verici olduğunu açıkladı.

HAKAN TEKİN

Giriş Tarihi: 21.1.2021 22:23 Son Güncelleme: 21.1.2021 22:23 ABONE OL Google News



Açıqlama belə davam edir: "Bu anlaşmanın iki ölkənin dostluğunu gücləndirməsini, dost və qardaş Azərbaycan və Türkmənistan xalqlarına xeyirli olmasını və bölgənin rifahı və sabitliyinə güc gətirməsini istəyirik. Bu anlaşmanın Türkiyə ilə Avropanın qaları hissələrinin enerji təhlükəsizliyini artıracaq layihələrin də önünü açmasını arzu edirik" .

---

### Putin Təhlükəsizlik Şurasının iclasını keçirdi

**Moskvada Rusiya prezidenti Vladimir Putinin rəhbərliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirilib. İclasda strateji stabillik məsələləri, eləcə də rusiyadaxili problemlər müzakirə mövzusu olub. İclasda, həmçinin Strateji Hücum Silahlarının Azaldılması barədə Saziş müzakirə olunub.**



Qeyd edək ki, 2010-cu ildə ABŞ-la Rusiya arasında imzalanmış bu sazişin müddəti 2021-ci il fevralın 5-də bitir./trend

---

### ADA Universiteti Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və səmərəli təşkili mövzusunda sosioloji tədqiqat layihəsini həyata keçirəcək

Azərbaycan Ali Baş Komandanın rəhbərliyi altında Vətən müharibəsində qalib gələrək tarixi uğura imza atıb. Bu tarixi uğur, eyni zamanda, ölkəmizin gələcək inkişafı üçün yeni bir dövrün başlanğıcıdır. Məhz buna görə də, işğaldan azad edilmiş torpaqlarımızın bərpası və həmin yerlərdə hərtərəfli inkişafın təmin edilməsi prioritet vəzifələrdən biridir.

AZƏRTAC xəbər verir ki, işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin mərkəzləşdirilmiş qaydada həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Əlaqələndirmə Qərargahı yaradılıb. Qərargahın nəzdində müxtəlif işçi qruplarından ibarət İdarələrarası Əlaqələndirmə Mərkəzi fəaliyyət göstərir.

Bu işçi qruplarından biri olan Akademik və Təhsil məsələləri üzrə İşçi Qrupunun əsas fəaliyyət istiqaməti işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesi ilə bağlı elmi tədqiqatların və təhlillərin aparılmasıdır. İşçi qrupu müxtəlif elmi dairələr və tədqiqat mərkəzlərini təmsil edən tanınmış alimlərdən ibarətdir.

2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğaldan azad olunmuş ərazilərə qayıdışla əlaqədar məcburi köçkünlər arasında sorğular keçirilməsi və onların niyyətinin öyrənilməsi barədə müvafiq tapşırıq verdiyini bildirib. Qarşıdan gələn dövrdə məsələ ilə bağlı ümumi rəyin müəyyənləşdirilməsi, həmin ərazilərə qayıdanların ehtiyaclarının, onların bərpa işlərində iştirak imkanlarının, sahibkarların işğaldan azad olunmuş ərazilərə cəlb edilməsi şərtlərinin öyrənilməsi məqsədilə məcburi köçkünlər, habelə sahibkarlar arasında sorğuların keçirilməsi planlaşdırılır.





Qeyd olunan layihənin ADA Universiteti nəzdində yaradılan xüsusi tədqiqat qrupu tərəfindən həyata keçirilməsi nəzərdə tutulur. Bu məqsədlə layihəyə universitetin akademik heyəti ilə yanaşı, bir sıra nüfuzlu yerli və beynəlxalq beyin mərkəzləri və elmi tədqiqat institutları, habelə ayrı-ayrı tanınmış alim və mütəxəssislərin cəlb olunması planlaşdırılır.

Sorğuların keçirilməsi ərəfəsində və onların nəticələri ilə bağlı KİV-də və sosial mediada müvafiq məlumatlar mütəmadi şəkildə təqdim ediləcəkdir.

Tədqiqata hazırlıq məqsədilə ADA Universitetində keçirilmiş görüşdə universitetin rektoru Hafiz Paşayev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi - Akademik və Təhsil Məsələləri üzrə İşçi Qrupunun rəhbəri Emin Hüseynov və qrupun digər üzvləri iştirak ediblər. Görüşdə sözügedən sosioloji tədqiqatın həyata keçirilməsi ilə bağlı görüləcək işlər, sorğuların hazırlanması və aparılması zamanı diqqət yetirilməli olan məqamlar və digər aidiyyəti məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb. Yaxın zamanlarda müvafiq sorğuların keçirilməsinə başlanması nəzərdə tutulur.

---

### Azərbaycan əhalisinin sayı 10 milyon 123 min nəfəri keçib

**Ötən ilin əvvəlindən ölkə əhalisinin sayı 56 min 292 nəfər və ya 0,6 faiz artaraq 2020-ci il dekabr ayının 1-i vəziyyətinə 10 milyon 123 min 400 nəfərə çatıb. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib. Bildirilib ki, əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin bir kvadratkilometrə düşən sayı 117 nəfər olub.**



# Türkiyə KİV-ləri Azərbaycan ilə Türkmənistan arasında imzalanan Anlaşma Memorandumundan yazırlar










***Türkiyə kütləvi informasiya vasitələri Azərbaycan ilə Türkmənistan arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması barədə geniş məlumatlar yayıb.***

AZƏRTAC xəbər verir ki, qardaş ölkə mediası, həmçinin Türkiyə Xarici İşlər Nazirliyinin məlum anlaşmanı məmnuniyyətlə qarşılamasına dair açıqlamaya da geniş yer ayırıb. Məlumatlarda əminliklə ifadə olunur ki, yanvarın 21-də Azərbaycan ilə Türkmənistan arasında imzalanmış məlum tarixi sənəd regiondakı iqtisadi münasibətlərə və inkişaf prosesinə yeni təkan verəcək.

# Zakir Həsənov Böyük Britaniya səfiri ilə görüşüb



Yanvarın 22-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfiri Ceyms Şarp ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Zakir Həsənov azad edilmiş ərazilərdə ordumuz tərəfindən həyata keçirilən tədbirlər, həmçinin Azərbaycan Ordusunda aparılan islahatlar və digər məsələlər barədə səfirə məlumat verib.

Görüşdə iki ölkə arasında müdafiə, o cümlədən hərbi-texniki sahədə əməkdaşlıq üçün böyük potensialın olduğu və bu imkanların genişləndirilməsinin vacibliyi vurğulanıb. Tərəflər ölkələrimiz arasında hərbi təhsil sahəsində əldə olunan razılaşmaların həyata keçirilməsinin, hərbi ingilis dili kurslarında dinləyicilərin sayının artırılmasının zəruriliyini xüsusi vurğulayıb. Öz növbəsində diplomat Vətən müharibəsində qazanılan Qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib.

Azərbaycan-Böyük Britaniya əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini bundan sonra da əsirgəməyəcəyini qeyd edən C.Şarp ikitərəfli əməkdaşlıq çərçivəsində Böyük Britaniyanın azad olunmuş ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərində Azərbaycana kömək göstərə biləcəyini bildirib. Görüşdə regional və ikitərəfli əməkdaşlıq, həmçinin qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə olunub.

## Ərdoğan: Bu həftənin sonuna qədər Çindən Türkiyəyə daha 10 milyon doza vaksin gətiriləcək



Çindən Türkiyəyə ikinci partiya vaksinin gətirilməsi ilə bağlı razılıq əldə edilib. Böyük ehtimalla bu həftənin sonuna qədər Çindən Türkiyəyə daha 10 milyon doza vaksin gətiriləcək. Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında bildirib. Media nümayəndələrinin ölkədə COVID-19-a qarşı tətbiq edilən qadağaların yumşaldılması ilə bağlı sualını cavablandıran Prezident Ərdoğan bu məsələnin Nazirlər Kabinetinin növbəti iclasında müzakirə olunacağını, ictimaiaşə obyektlərinin açılması fikrinin də bu müzakirələrə daxil ediləcəyini deyib.

## Anar Kərimov: Xudavəng monastırından səkkiz əsrlik freskaların aparılması böyük cinayətdir



***Ermənilər tərəfindən Xudavəng monastırından 8 əsrlik freskaların aparılması, şübhəsiz ki, böyük cinayətdir. Biz dəfələrlə həm UNESCO, həm də digər beynəlxalq təşkilatlar səviyyəsində bunu bəyan etmişik. AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında mədəniyyət naziri Anar Kərimov deyib.***

Ermənilərin bu addımının vandallıq olduğunu və UNESCO-nun 1970-ci ildə qəbul etdiyi konvensiyasına zidd olduğunu söyləyən nazir deyib: "Biz bunu qətiyyətlə pisləyirik və bununla bağlı işlərimizi davam etdirəcəyik. UNESCO-ya bu haqda məlumat verilib və təşkilat tərəfindən buna hüquqi qiymətin verilməsi üzərində çalışacağıq".

# İşğaldan azad olunmuş ərazilərə nə qədər pul xərclənəcək?



Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov "Bloomberg" agentliyinə müsahibə verib. SİA xəbər verir ki, nazir müsahibəsində Azərbaycanda koronavirusla bağlı iqtisadi vəziyyət və ölkəmizin torpaqlarını işğaldan azad etdiyi Vətən Müharibəsinin nəticələrini dəyərləndirib.

"Azərbaycan iqtisadiyyatı koronavirusa görə ötən il 4,3 faiz geriləmişdi. Bu il isə 3,4 faiz artım gözləyirik. Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun da ölkəmizlə bağlı builki proqnozları nikbindir. Dünya Bankı bu il iqtisadiyyatımızın 1,9 faiz, Beynəlxalq Valyuta Fondu isə 2 faiz böyüyəcəyini proqnozlaşdırır".

Nazir ümidvar olduğunu bildirib ki, Azərbaycanda yanvarın 18-dən başlayan koronavirus vaksinasiyasından sonra qapanma olan sahələrdə yenidən canlanma müşahidə ediləcək. "44 günlük müharibə və Rusiyanın vasitəçiliyi ilə imzalanan Bəyanatdan sonra işğal altındakı torpaqlar azad edilib. Müharibədən sonra böyük yenidənqurma planları var. Nəqliyyat əlaqələri genişlənəcək, yeni geosiyasi reallıqlar Azərbaycan iqtisadiyyatında böyüməyə və məşğulluğa önəmli töhfə verəcək", - M.Cabbarov əlavə edib. O vurğulayıb ki, ölkəmiz işğaldan azad olunmuş ərazilərimizin inkişafı üçün 2,2 milyard manat xərcləyəcək.

## Aleksandr Oxrimenko: Enerji resursları hasilatında zəngin təcrübəyə malik olan Azərbaycan və Türkmənistan Avropa İttifaqına real kömək edə bilər



**Azərbaycan ilə Türkmənistan arasında saziş yalnız alqışlamaq olar. Bu saziş Xəzər dənizində karbohidrogenlərin birgə hasilatının və Avropa İttifaqına nəqlinin təmin olunmasına real kömək edə bilər.**

Ukrayna analitik mərkəzinin rəhbəri, ekspert Aleksandr Oxrimenko bu fikri AZƏRTAC-a müsahibəsində söyləyib. Onun sözlərinə görə, enerji resursları hasilatında zəngin təcrübəyə malik olan Azərbaycan və Türkmənistan indiki şəraitdə Avropa İttifaqına real kömək edə bilər. Ekspert qeyd edib ki, enerji resurslarını başqa ölkələrdən, o cümlədən Türkmənistandan və Azərbaycandan almaq Avropa üçün sərfəli olar, çünki bu, enerji resursları ilə təchizatı şaxələndirməyə kömək edər.

Xatırladaq ki, yanvarın 21-də Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə əlaqədar Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında görüş keçirilib.

# Fevralın 1-dən tədris və təlim-tərbiyə prosesi mərhələli şəkildə əyani formada təşkil olunacaq



Nazirlər Kabineti Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkili ilə bağlı əlavə tədbirlər barədə "Sanitariya-epidemioloji salamatlıq haqqında" Qərar qəbul edib. AZƏRTAC xəbər verir ki, Qərara əsasən:

1. Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün təhsil müəssisələrində 2021-ci il 1 fevral tarixindən tədris və təlim-tərbiyə prosesinin əyani formada təşkili sanitar-epidemioloji vəziyyətlə bağlı Azərbaycan Respublikasının baş dövlət sanitariya həkiminin və ya Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin gigiyena və epidemiologiya mərkəzlərinin müvafiq rəyləri əsasında Azərbaycan Respublikası Təhsil Nazirliyinin qərarına əsasən təhsil pillələri və səviyyələri üzrə mərhələli şəkildə təmin edilsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən bu Qərarın 1-ci hissəsinə uyğun olaraq tədris və təlim-tərbiyə prosesinin əyani formada aparılmasının bərpası və ya dayandırılması barədə qərar qəbul edildiyi halda, tabeliyində təhsil müəssisələri olan digər icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər və özəl təhsil müəssisələrinin təsisçiləri də tabeliklərində olan təhsil müəssisələrinə münasibətdə eyni qərarlar qəbul edirlər;

2.2. xüsusi karantin rejimi dövründə təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 sentyabr tarixli 332 nömrəli Qərarı ilə təsdiq edilmiş "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları"na uyğun tənzimlənir.

3. Azərbaycan Respublikasının Təhsil Nazirliyi bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

# Ceyhun Bayramov gürcüstanlı həmkarı ilə telefonla danışıb




Dünən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Gürcüstan xarici işlər naziri David Zalkaliani arasında telefon danışığı baş tutub. Nazir Ceyhun Bayramov gürcü həmkarının eyni zamanda Gürcüstan baş nazirinin müavini vəzifəsinə təyin edilməsi münasibəti ilə səmimi təbriklərini çatdırıb və ona faliyyətində uğurlar arzu edib.

Nazirlər bölgədəki son vəziyyəti, eləcə də ikitərəfli münasibətlər gündəliyinə daxil olan müxtəlif sahələrdə əməkdaşlıq perspektivləri üzrə fikir mübadiləsi aparıblar. Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Ara Ayvazyan Gürcüstana gedib



Gürcüstanın Xarici İşlər Nazirliyinin yaydığı məlumata görə, Ermənistanın xarici işlər naziri Ara Ayvazyan Gürcüstana qeyri-rəsmi səfər edib. "İki sahil"in məlumatına görə, Gürcüstanın xarici işlər naziri David Zalkaliani erməni həmkarı ilə Kaxeti bölgəsinin Tsinandali kəndində görüşüb. Qeyri-rəsmi görüşdə iki ölkə arasında əlaqələrin daha da dərinləşdirilməsi üzrə perspektivlər müzakirə olunub.

## Şuşa və digər azad olunmuş ərazilərə avtobus reysləri açılır




İşğaldan azad edilmiş şəhər və rayonlara avtobus xətləri də açılacaq. Bunu Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyat Xidmətinin (DANX) İctimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova deyib. Onun sözlərinə görə, artıq daşıyıcı şirkətlərin müəyyən edilməsi üçün müsabiqəyə də start verilib: "İlkin mərhələdə avtobus reysləri açılacaq yerlər Horadiz, Suqovuşan, Talışkənd, Cəbrayıl və Zəngilan rayonudur. Şuşa şəhərini biz ikinci mərhələyə salmaq istəyirdik, ancaq oraya getmək istəyənlərin çoxluğunu nəzərə alaraq onu da birinci mərhələyə saldıq. Nəzərdə tutulur ki, Şuşaya Gəncədən, Beyləqandan və Yevlaxdan avtobus xətləri işləsin".

# İşğaldan azad olunan ərazilərimizdə dini-tarixi abidələr yenidən qurulacaq



Müstəqil Azərbaycanın bütün ərazilərində tarixi, dini abidələrimiz məscidlərimiz yenidən tikilib, bərpa edilib və bu davamlıdır. Məscidlər tarixi simaları qorunmaqla əsaslı təmir edilib. Dünyanın ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş Şamaxı Cümə məscidi yenidən qurulub. Xristian dini abidələri, alban kilsələri, o cümlədən Nic qəsəbəsindəki kilsə, Kiş kilsəsi təmir edilib. Tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin qorunması, həmçinin dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsini daim diqqət mərkəzində saxlayan dövlət kimi bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdiriləcəkdir. Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb. Yalnız beynəlxalq təşkilatların təzyiqləri nəticəsində Ağdam Cümə məscidini, Şuşa şəhərindəki Aşağı Gövhərağa, Yuxarı Gövhərağa və Saatlı məscidlərinin divarlarını salamat saxlamaq mümkün olub. Bütün dünyaya ermənilər Ağdam Cümə məscidinin içərisində ev heyvanları, o cümlədən donuz saxlamaqla öz iyrənc simalarını göstərdilər. Məlumdur ki, Yerevandakı Dəmirbulaq məscidi yer üzündən silinib.

Artıq işğaldan azad olunan ərazilərimizdə dini abidələrin bərpasına star verilib. Azərbaycan Prezidenti İlham Əliyev Şuşaya səfəri zamani bildirdiyi kimi, ziyarət etdiyim Ağdam Cümə məscidinin əsaslı təmiri və bərpası işlərinə start verildi: "Artıq mütəxəssislər oraya ezam edildi və yaxın zamanlarda təmirlə bağlı təkliflər veriləcək. Eyni zamanda, Şuşa şəhərinin məscidləri də bərpa ediləcək. Minarənin dağıdılması düşmənin islamofob xislətini göstərir".

"Bütün dinlərin abidələri bizdə qorunur - kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib"

Vurğulayaq ki, ölkəmizdə olan çoxsaylı xristian icması cəmiyyətimizin ayrılmaz və fəal hissəsidir, onların abidələri və ibadət yerləri, kilsələr Azərbaycan dövləti tərəfindən tam mühafizə edilir və mütəmadi olaraq bərpa edilir. Rus Pravoslav Baş Kafedral Kilsəsi, "Xilaskar" Yevangelik-lüteran kilsəsi, Gəncədəki Aleksandr Nevski Rus Pravoslav Kilsəsi dövlət tərəfindən təmir olunub, Bakı və Azərbaycan Yeparxiyasının Pravoslav Dini-Mədəniyyət Mərkəzi inşa edilib. Qəbələdəki Çotari alban-udi və Bakıdakı Pravoslav kilsələrinin təmiri, Bakıdakı Müqəddəs Məryəm kilsəsinin inşası Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində reallaşdırılıb. O cümlədən, Qəbələnin Nic qəsəbəsindəki Müqəddəs Məryəm Ana alban kilsəsi Heydər Əliyev Fondu tərəfindən əsaslı şəkildə bərpa edilib. Bakı şəhərinin mərkəzində Azərbaycan dövləti tərəfindən erməni kilsəsi bərpa edilib. Cənab Prazident bildirib ki, bütün dinlərin abidələri bizdə qorunur - kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib: "Onlar nə ediblər? Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar nə ediblər, beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox. Ermənistan rəhbərliyinin və onun havadarlarının yalan məlumatlarına inanmayın, gəlin, öz gözlərinizlə baxın nə günə salıblar bizim məscidlərimizi. Sadəcə olaraq, onlar görüntü yaratmaq üçün Yuxarı Gövhərağa məscidini guya bir xarici şirkətlə birlikdə təmir etdiriblər. Bu təmir bizə lazım deyil. Bu təmir riyakarlıq rəmzidir, sadəcə olaraq, görüntü yaratmaqdır ki, guya Ermənistan rəhbərliyi məscidləri təmir etdirir".

"Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz"

Cox təəssüfedici haldır ki, maddi-mədəniyyət abidələrinin zənginliyi ilə seçilən Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğalı nəticəsində İslam mədəniyyətinə aid olan bütün abidələr dağıdılıb. "Ermənistan daim çalışır ki, müsəlman ölkələri ilə münasibətlər qursun, bəzi ölkələrlə münasibətləri inkişaf etdirsin, özünü sanki müsəlman xalqlarına müsbət münasibət bəsləyən bir ölkə kimi qələmə versin" deyən dövlət başçısı bunların yalan oldugunu bildirib: "Hamısı yalandır. Əgər buna kimsə bu günə qədər inanıbsa, gəlsin Şuşaya, Ağdama, Füzuliyə, Cəbrayıla, bizim azad edilmiş digər torpaqlara, görsün ki, Ermənistan rəhbərliyi nə günə salıb müsəlman məscidlərini. Hər bir müsəlman üçün müqəddəs olan məbədlərimizi nə günə salıb. Dağıdıb, təhqir edib, donuz saxlayıb, inək saxlayıb, məscidlərimizin üzərində təhqiramiz ifadələr yazdırıb. Belə bir ölkə müsəlman ölkələri ilə dost ola bilərmi? Əlbəttə ki, yox. Mən bunu dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan edirdim, müsəlman ölkələrinin liderlərinə müraciət edərək həm ikitərəfli formatda, həm çoxtərəfli görüşlər əsnasında, beynəlxalq tədbirlərdə deyirdim ki, Ermənistan müsəlman ölkələri üçün dost ola bilməz, məscidləri bu günə qoyan ölkə müsəlman ölkələri ilə dost ola bilməz".

Tarixin müxtəlif dönəmlərində Azərbaycan tolerant mühiti, multikultural dəyərləri ilə seçilən məkan olub. Bütün dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşaması və ölkəmizin uğurlu inkişafına birgə töhfələr mövcud mühitin təzahürüdür. Bütün dinlərə hörmətlə yanaşaraq müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət göstərlir, o cümlədən dini ocaqlara məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin, vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir.

Ermənistan əməllərinin təzahürü olan bu vandallıq bir daha təsdiqləyir ki, bütün bunlar Azərbaycana qarşı mədəni soyqırımıdır. Artıq Azərbaycan öz torpaqlarına sahibdir və işğaldan azad olunan dagıdılmış ərazilərimiz, o cümlədən dini-tarixi abidələr yenidən qurulacaq, təmir və bərpa ediləcəkdir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "Dostluq" yatağının birgə işlənməsi həm Türkmənistana, həm də Azərbaycana xeyir gətirəcək

***Otən gün Aşqabadda "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu" imzalandı. Bu tarixi hadisə Azərbaycanın neft-qaz sənayesində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər.***



Anlaşma Memorandumunun imzalanması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov arasında videokonfrans formatında keçirilən görüşdə dövlətimizin başçısı memorandumun əhəmiyyətini qeyd edərkən onu tarixi sənəd adlandırıb. "Çünki Azərbaycan və Türkmənistan ilk dəfə olaraq, Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır və bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

Sənədin strateji istiqamətdə - enerji sahəsində Türkmənistan-Azərbaycan tərəfdaşlığında prinsipcə yeni mərhələ açdığını qeyd edən Prezident Qurbanqulu Berdiməhəmmədov 2020-ci ilin mart ayında Bakıya rəsmi səfəri zamanı Azərbaycan Prezidenti ilə birgə Xəzər dənizində energetika sahəsində ikitərəfli əməkdaşlıq imkanlarını ətraflı müzakirə və təhlil etdiklərini xatırladaraq deyib: "Nəticədə Xəzərdə iri karbohidrogen resursları yataqlarından birində birgə iş barədə razılaşma əldə edildi. Həm də vurğulandı ki, həmin fəaliyyətin əsas prinsipləri həmrəylik, qarşılıqlı hörmət və dəstək olacaq. Buna görə də həmin yatağı "Dostluq" adlandırmaq barədə bizim ümumi qərarımız dərin rəmzi məna daşıyır. Şübhə yoxdur ki, yuxarıda qeyd etdiyim razılaşmalar, qəbul olunmuş qərarlar bizim münasibətlərimizin, dövlətlərimizin tarixinə həqiqi mehriban qonşuluğun, məsuliyyətin və uzaqgörənliyin, hüquq bərabərliyinin və bir-birinin mənafelərini nəzərə almağın parlaq nümunəsi kimi daxil olacaq. Onlar, əlbəttə, Türkmənistan və Azərbaycan xalqları, həmçinin bizim dövlətlərimiz arasında dostluğu və qardaşlığı daha da möhkəmlədəcək".

AZƏRTAC Azərbaycan və Türkmənistan arasında Anlaşma Memorandumunun imzalanması fonunda ölkəmizin Xəzəri dostluq və əməkdaşlıq dənizinə çevirmək istiqamətində göstərdiyi səylərə, dənizin dibinin həmhüdud sahələrinin ədalətlə bölünməsinə nail olmaq üçün atdığı addımlara, həmçinin "Dostluq" yatağının karbohidrogen ehtiyatlarının birgə işlənməsi nəticəsində əldə ediləcək siyasi-iqtisadi dividendlərə nəzər salır.

## Azərbaycan həmişə Xəzərdə dialoq, qarşılıqlı anlaşma və əməkdaşlığın tərəfdarı olub

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində hələ 27 il bundan əvvəl - 1994-cü il sentyabrın 20-də Bakıda tarixə "Əsrin müqaviləsi" kimi daxil olmuş, Xəzər dənizində neft yataqlarının işlənilməsi və hasilatın pay bölgüsünə dair sazişin imzalanmasına nail olub. "Əsrin müqaviləsi"nin imzalanması Xəzər dənizinin karbohidrogen resurslarının istifadə üçün dünyanın aparıcı neft şirkətlərinin və xarici investisiyaların cəlb edilməsi üzrə çox mühüm siyasi addım idi. Bununla da ilk dəfə olaraq Xəzər dənizində beynəlxalq əməkdaşlığa yol açıldı.

Ölkəmiz hər zaman Xəzər dənizində dialoq, qarşılıqlı anlaşma, əməkdaşlıq və sabitlik mühitinin formalaşdırılması üzrə səylər göstərib və Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üçün ilk təşəbbüs göstərən dövlətlərdən biri olub. Bu səylər Xəzər dənizində bölgü məsələləri üzrə bütün sahilyanı ölkələrin mövqelərinin yaxınlaşdırılmasına və ümumi razılığın əldə edilməsinə xidmət edib.

Xəzər dənizində bölgü məsələləri üzrə sahilyanı ölkələr arasında dialoq üçün ikitərəfli və çoxtərəfli formatlara üstünlük verilib. Bu çərçivədə 2001-ci il noyabrın 29-da "Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında Xəzər dənizinin dibinin bölünməsi haqqında Saziş", 2002-ci il sentyabrın 23-də "Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölünməsi haqqında Saziş" və 2003-cü il mayın 14-də "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Rusiya Federasiyası arasında Xəzər dənizinin dibinin həmhüdud sahələrinin bölgü xətlərinin kəsişmə nöqtəsi haqqında Saziş"in imzalanmasına nail olunub.

Sonradan Xəzər dənizinin şimal hissəsinin dibinin bölünməsi üzrə də razılaşma əldə olunub ki, bu, öz növbəsində bütün sahilyanı ölkələr arasında Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi üzrə beştərəfli formatda aparılan prosesə güclü təkan verib. Xəzəryanı dövlətlər arasında qarşılıqlı kompromis və mövqelərin yaxınlaşması nəticəsində 2018-ci il avqustun 12-də çox mühüm sənəd - "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya imzalanıb. Xəzər dənizinin hüquqi statusu üzrə ümumi razılaşmanın əldə edilməsi Azərbaycanın Xəzər dənizi üzrə nümayiş etdirdiyi strategiyanın məqsədyönlü və əsaslı olduğuna sübutdur.

## Azərbaycanın yeni neft-qaz mənbəyi - "Dostluq" yatağı

Ölkəmizin "Kəpəz", Türkmənistanın isə "Sərdar" adlandırdığı və zəngin neft-qaz ehtiyatlarının olduğu yataq iki dövlətin dəniz sərhədində yerləşir. Yataq SSRİ dövründə Azərbaycan neftçiləri tərəfindən dənizin 4 kilometr dərinliyindəki layda kəşf olunub və 1989-cu ildə orada ilk kəşfiyyat quyusu qazılıb.

Ümumiyyətlə, Xəzər dənizində geologiya-kəşfiyyat işlərinin aparılması, yeni yataqların aşkarlanması bilavasitə Azərbaycan neftçilərinin, geoloqlarının adı ilə bağlıdır. Xoşbəxt Yusifzadə, Qurban Abbasov, Bəhmən Hacıyev və digər neftçilərimiz bu işdə böyük rol oynayıblar. SSRİ dövründə bu yataq Azərbaycanla Türkmənistanın dənizdəki sərhədinin tən ortasında yerləşdiyi üçün "Promejutoçnoye", yəni "Aralıq" adlandırılıb.

Bu yataq Azərbaycan neftçiləri tərəfindən kəşf olunsa da, Azərbaycanla Türkmənistanın dənizdəki sərhədində yerləşdiyinə görə, uzun illər onun işlənməsi mümkün olmayıb və məsələ ilə bağlı ardıcıl danışıqlar aparılıb. 1998-ci ildə Xəzər dənizinin orta xətti koordinatları üzrə Azərbaycan Respublikası ilə Türkmənistan arasında danışıqlar aparılması üçün ekspert qrupu yaradılıb. Dövlət başçıları arasında ardıcıl təmaslar, qarşılıqlı səfərlərin nəticəsi olaraq əvvəlki fikir ayrılıqlarına son qoyulub və iki dost ölkə arasında bütün məsələlərin qarşılıqlı maraqlar əsasında həlli üçün etibarlı zəmin yaradıb.

## "Dostluq" yatağı Azərbaycanın neft hasilatını artırmasına imkan yaradacaq

Mütəxəssislər yataqda təqribən 50 milyon tondan çox çıxarıla bilən neft ehtiyatı və 30 milyard kubmetrdən çox təbii qaz ehtiyatının olduğu proqnozlaşdırırlar.

"Dostluq" yatağına dair memorandumun imzalanması Azərbaycanın hazırkı strategiyasında əsas prioritet istiqamət kimi müəyyənləşdirdiyi neft hasilatının nisbətən stabil saxlanılması, lakin təbii qaz istehsalının maksimum artırılması planları ilə üst-üstə düşür. Belə ki, ölkəmizdəki neft yataqlarının əksəriyyəti uzun illərdir istismar olunur. Təbii olaraq həmin yataqların neftverimliliyi aşağı düşür. "Azəri-Çıraq-Günəşli" yataqlarında da hazırda hasilatın təbii yolla müəyyən qədər azalması müşahidə edilir. Bu baxımdan "Dostluq" yatağı Azərbaycanın neft hasilatını stabil saxlamasına və bir qədər artırmasına imkan yaradacaq.

Həmçinin yataqda Türkmənistanın payına düşəcək neftin Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri vasitəsilə dünya bazarlarına çıxarılması imkanı yaranır. Bu da BTC-nin rentabelliyinin artması, Azərbaycana əlavə tranzit gəlirlərinin daxil olması deməkdir.

Yatağın qaz resursları nəzərə alındıqda isə burada hasil olunacaq təbii qazın Cənub Qaz Dəhlizi vasitəsilə nəqlinə imkan yarana bilər ki, bu da öz növbəsində, Azərbaycanın təbii qaz gəlirlərinin artmasına, layihənin effektivliyinə öz töhfəsini verəcək. Digər tərəfdən Azərbaycan və Türkmənistan arasında imzalanan bu memorandum gələcəkdə yeni əməkdaşlıq əlaqələrinin qurulması üçün də əhəmiyyətlidir. Türkmənistan dünyada ən çox təbii qaz resurslarına malik dördüncü ölkədir. Gələcəkdə türkmən qazının da Cənub Qaz Dəhlizi şəbəkəsinə daxil olması bu istiqamətdə həm Türkmənistana əlavə gəlirlər qazandıra, təbii qaz ixracının artmasına imkan yarada, həm də Cənub Qaz Dəhlizi layihəsinin əhəmiyyətini artıra, Azərbaycanın bu istiqamətdə gəlirlərinin daha da çoxalmasına təkan verə bilər.

## Memorandum Azərbaycan-Türkmənistan əməkdaşlığının yeni səhifəsini açır

Yatağın "Dostluq" adlandırılması iki ölkə arasında dostluğun, qardaşlığın, qarşılıqlı əlaqələrin həm də tarixi etnik-dini ənənələrə söykənməsinin bariz nümunəsidir. "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumunun imzalanması ilə Azərbaycanla Türkmənistan arasında energetika və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlığın yeni səhifəsi açılıb. Sənəd, həmçinin Xəzər dənizinin dibinin bölünməsi üzrə dialoqun və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir.

Bu layihənin həm də çox böyük beynəlxalq və regional əhəmiyyəti var. Memorandumun imzalanması göstərir ki, Xəzər dənizində bütün məsələlər dialoq və əməkdaşlıq mühitində həll oluna bilər. Sənəd Xəzər dənizi regionunda enerji və nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsinə və xarici investorların bu layihələrə cəlb edilməsinə, habelə Azərbaycanın nəqliyyat-tranzit potensialının möhkəmlənməsinə yeni imkanlar yaradır.

Razılaşmanın əldə edilməsi, eyni zamanda, Xəzərdə əməkdaşlıq və qarşılıq etimad mühitinin gücləndirilməsinə töhfə verir. 2021-ci ildə Türkmənistanın təşəbbüsü ilə keçiriləcək Xəzəryanı dövlətlərin dövlət başçılarının növbəti Zirvə Toplantısı ərəfəsində bu memorandumun imzalanması Xəzəryanı dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsinin bariz nümunəsi kimi səciyyələndirilir.

# İşğaldan azad edilmiş ərazilərimizin bərpası iqtisadiyyatımızın inkişafına yeni bir təkan verəcək

**Milli Məclisin deputatı Rauf Əliyevin yap.org.az-a müsahibəsi**



***-Rauf müəllim, hazırda ölkə gündəmində olan əsas məsələlərdən biri işğaldan azad edilmiş ərazilərimizin bərpasıdır. Bu istiqamətdə görülən işlər haqqında fikirlərinizi bilmək istərdik...***

-Bilirsiniz ki, Azərbayan dövləti və xalqı Vətən müharibəsində qazanılan şanlı qələbə sayəsində qarşısında duran əsas problemin həllinə nail oldu. Artıq Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan Dağlıq Qarabağ münaqişəsi tarixə qovuşub və ölkəmizin ərazi bütövlüyü təmin edilib. Qarşıda isə bizi yeni mühüm vəzifə gözləyir ki, bu da işğaldan azad olunan ərazilərin bərpa edilməsi ilə bağlıdır. Qeyd edim ki, Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə çıxışı zamanı bu məsələ ilə bağlı qarşıya qoyulan hədəfləri cəmiyyətimizə çatdırıb. Azərbaycan güclü dövlət kimi işğaldan azad edilən torpaqlarımıza həyatı qaytarmaq, bu əraziləri dirçəltmək əzmindədir. Dövlətimizin başçısı vurğulayıb ki, bizim əsas diqqətimiz azad edilmiş torpaqlara olmalıdır və bu sahədə ilkin infrastruktur layihələrinin icrası artıq başlayıb.

Ümumiyyətlə, Azərbaycanın işğaldan azad edilən ərazilərdə bərpa planları kifayət qədər genişdir. Vətən müharibəsində qazanılan şanlı qələbə sayəsində geri qaytarılan ərazilərin tezliklə bərpa edilməsi üzrə işlərin həyata keçirilməsi, müvafiq infrastrukturların yaradılması, həmin regionun Azərbaycan iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi üçün bu ilin dövlət büdcəsində 2,2 milyard manat vəsait nəzərdə tutulub. Müşavirədə də bildirildiyi kimi, ordunun təchizatı, respublikamızın sərhədlərinin bərpa edilməsi üzrə işlərin maliyyələşdirilməsi də nəzərə alınmaqla, ümumilikdə bu tədbirlərə 4,6 milyard manat maliyyə təminatı ayrılıb. İşğaldan azad edilən ərazilərin bərpası işləri isə müəyyən ardıcıllıqla həyata keçiriləcək.

***-Sizcə, işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialı hansı səviyyədədir?***

-Əlbəttə ki, bu ərazilərin potensialı çox yüksəkdir. Baxmayaraq ki, işğalçılar 30 il ərzində bu ərazilərdə hər şeyi məhv edib, amma bu torpaqların hər qarışı bizim sərvətimizdir. Gözəl təbiəti, yeraltı və yerüstü resursları olan Qarabağ torpaqlarının iqtisadiyyatımıza böyük dividentlər gətirəcəyi şübhəsizdir. Təbii ki, quruculuq işləri həyata keçiriləndən, insanlar o torpaqlara qayıtdıqdan, torpaqların əkilib-becərilməsindən, sosial-iqtisadi infrastrukturun yaradılmasından sonra biz həmin bölgələrin inkişafımıza nə qədər böyük təkan verəcəyinin, müsbət təsir göstərəcəyinin şahidi olacağıq.

Azad olunmuş bütün şəhərlərin, kəndlərin bərpası müasir tələblər nəzərə alınmaqla həyata keçirilməsi nəzərdə tutulur. İşlər elə aparılmalıdır ki, bərpa olunacaq şəhərlərin və kəndlərin dəqiq say tərkibi müəyyən edilsin. Ərazilərdə infrastruktur, məşğulluq və s. bu kimi məsələlər nəzərə alınmalıdır. Məlumdur ki, indiyədək işğaldan azad edilmiş torpaqların bərpası və inkişafı konsepsiyası hazırlanıb. Geri qaytarılan ərazilərin bərpası və inkişafı istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlər və həmin rayonların iqtisadi potensialı ölkəyə, xüsusilə də qeyri-neft sektoruna yeni yerli və xarici investisiyaların cəlb olunmasına zəmin yaradacaq.

İşğaldan azad olunmuş ərazilərin bərpası və inkişafı ilə bağlı kompleks yanaşmanı təmin etmək üçün bir neçə mərhələdə fəaliyyətin həyata keçirilməsi nəzərdə tutulur. İlkin mərhələ idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlər isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsini özündə ehtiva edir. Hər bir bölgəmizin təbii ehtiyatları, ənənəvi iqtisadiyyat sahələri, nəqliyyat qovşaqlarına, o cümlədən yenidən bərpa olunan nəqliyyat dəhlizlərinə və artıq tikintisinə başlanılmış avtomobil və dəmir yollarına yaxınlığı nəzərə alınaraq onların profili, ixtisaslaşması nəzərdə tutulub. Bütövlükdə, bu ərazilərimizin yaxın illərdə yüksək səviyyədə bərpa olunacağına inanırıq.

***- Azərbaycan iqtisadiyyatında müşahidə edilən müsbət meyillər beynəlxalq səviyyədə də yüksək dəyərləndirilir. Bu barədə nə deyə bilərsiniz?***

-Son illərdə Azərbaycan iqtisadiyyatında müşahidə edilən müsbət meyillər beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Bunu nüfuzlu beynəlxalq qurumların, reytinq agentliklərinin yaydıqları hesabatlardan da aydın şəkildə görmək mümkündür. Həmin hesabatlarda Azərbaycanın mövqeyi ilbəil ardıcıl şəkildə yaxşılaşır.

Belə ki, Dünya Bankının son hesabatı, həmçinin nüfuzlu Davos İqtisadi Forumunun dəyərləndirmələri təsdiqləyir ki, milli iqtisadiyyatımız 2020-ci ildə də dayanıqlılığını qoruyub saxlayıb. Məlum olduğu kimi, ötən il qlobal pandemiya səbəbindən dünya ölkələri üçün çətin keçib. Dünya miqyasında iş və xidmətlərə tələbat azalıb, insanların əmək bazarına inteqrasiyası məhdudlaşıb. Pandemiya şəraitində ayrı-ayrı ölkələr sosial-iqtisadi inkişafla bağlı proqramlarını ixtisara salmaq məcburiyyətində qalıblar. Azərbaycan isə pandemiya şəraitində iqtisadi subyektlərə dəstək tədbirləri reallaşdırıb, həmçinin təxminən 5 milyon insanı əhatə edən geniş sosial proqram həyata keçirib. Azərbaycan dünya üzrə pandemiya səbəbindən artan xərclərini sırf daxili imkanlar hesabına qarşılayan azsaylı ölkələrdən biridir.

Ölkəmiz, həmçinin beynəlxalq həmrəyliyə töhfə vermək ənənəsinə sadiq qalaraq Ümumdünya Səhiyyə Təşkilatına iki tranşda 10 milyon dollar ianə ayırıb və 30-dan çox ölkəyə dəstək göstərib. Bütün bunlar Azərbaycan iqtisadiyyatının dayanıqlılığını təsdiqləyir ki, bu da beynəlxalq reytinq agentliklərinin hesabatlarında da öz əksini tapır. Dünya Bankının yenidən hesablanmış "Doing Business" hesabatında Azərbaycanın 190 ölkə arasında 28-ci yerə yüksəlməsi, 10 ən islahatçı ölkə sırasına daxil edilməsi böyük nailiyyətdir. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında isə respublikamızda aparılan müasir infrastruktur quruculuğuna yüksək qiymət verilib. Belə ki, respublikamız dəmir yolu xidmətlərinin səmərəliliyi indeksinə görə 11-ci yerə, hava yolları xidmətlərinin səmərəliliyi üzrə 12-ci yerə, avtomobil yollarının keyfiyyəti göstəricisinə görə 24-27-ci yerlərə layiq görülüb. Bu hesablama inkişaf etməkdə olan 74 ölkə arasında aparılıb. İnklüziv inkişaf indeksi üzrə isə Azərbaycan üçüncü yerdə qərarlaşıb.

Bu sosial-iqtisadi inkişaf göstəriciləri ölkəmizdə aparılan məqsədyönlü, düzgün siyasətin nəticəsidir. Son 17 ildə Azərbaycanda Prezident İlham Əliyevin siyasi iradəsi əsasında müxtəlif istiqamətlərdə islahatlar aparılıb. Ölkədə aparılan islahatlar sosial-iqtisadi inkişaf üçün möhkəm hüquqi əsaslar yaradıb. Bu gün Azərbaycan dünyada yüksək investisiya cəlbediciliyinə malik ölkə kimi tanınır. Hazırda Azərbaycan iqtisadiyyatının maliyyə təminatı yüksək səviyyədədir. Milli iqtisadiyyatımızın müxtəlif istiqamətlərinə həm daxili, həm də xarici mənbələrdən böyük həcmlərdə investisiyalar yönəldilir. Bütün bunlar iqtisadi gücümüzü, dünyadakı reytinqimizi artıran amillərdir.

# Paşinyanın Şuşa barədə etirafları



***Dağlıq Qarabağdakı müharibəni kiçik bir torpaq sahəsi təhvil verilməsi ilə dayandırmaq mümkün deyildi. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu sözləri Ermənistanın baş naziri Nikol Paşinyan deyib.***

"Bizim əslində, müharibəni daha kiçik ərazi itkiləri ilə dayandırmaq imkanımız yox idi", deyə Paşinyan etiraf edib. Məlumatda qeyd olunur ki, "Çiçəklənən Ermənistan" Partiyasından olan müxalifətçi millət vəkili Naira Zöhrabyan baş nazirdən Rusiya Prezidenti Vladimir Putinin "Şuşa üzərində nəzarəti qoruyarkən müharibəni erməni tərəfi üçün daha əlverişli şərtlərlə sona çatdırma ehtimalı olduğu" barədə soruşub. Nikol paşinyan isə cavabında daha əvvəl də müsahibələrində bu məsələlərə ətraflı toxunduğunu xatırladıb.

Danışıqlar prosesinin bütün dövrü ərzində belə, həll yolu istiqamətində "azərbaycanlı qaçqınların Şuşaya qayıtmasının qarşısını alan" bircə seçim belə yox idi", deyə baş nazir qeyd edib. Baş nazir xatırladıb ki, Şuşada münaqişədən əvvəl də azərbaycanlı əhali 90%-dən çox olub. "Əhalisinin 90%-dən çoxunun azərbaycanlılar olan Şuşa şəhərinin də erməni statusu almasını söyləmək istəyirsinizmi?"deyə Paşinyan fikirlərini yekunlaşdırıb.

***İnam***

# Erməni siyasi-ictimai rəyi: "Bizim üzərimizdə ayaq silirlər"

## *"İtaliya Azərbaycanı G-20 Sammitinə dəvət edib. Diqqət edin - İtaliya"*

Azərbaycanın G-20 (Böyük 20-lik) Sammitinə dəvət edilməsi və bu dəvətdə quruma sədrlik edən İtaliyanın mühüm rol oynaması erməni siyasi-ictimai isteblişmetində kəskin qıcıqlanma və hay-küy yaradıb. SİA xəbər verir ki, artıq Ermənistanda bununla bağlı narahatlıqlar yaranıb və xüsusilə İtaliyaya qarşı qarayaxma kampaniyaları aparılır. SİTAT: "İtaliya Azərbaycanı G-20 Sammitinə dəvət edib. Diqqət edin - İtaliya. İtaliya G-20-yə sədrlik etdiyi müddətdə onun üçün mühüm olan dövlətlərin dəvət edilməsini özü seçir. Həmin İtaliya ki, nə vaxtsa Ermənistan üçün ən dostmeramlı ölkə olub. Hər zaman - kədərini də, sevincini də bir yerdə bölüşüb. Ermənistanla bağlı məsələlərdə minimum balanslı yanaşmalar edib".

"Biz ləyaqətimizi itirmişik"

Beləliklə, Azərbaycanın G-20 Sammitinə dəvət edilməsini və Ermənistanın ümumiyyətlə adının çəkilməməsini az qala tükənməz həyasızlıqla car çəkən ermənilər bu məsələdə hakimiyyətin də susqun qalmasından təəccüb edirlər. "Nikol, XİN, rəsmi şəxslər, ümumilikdə isə bütün cəmiyyət sanki heç nə baş verməmiş kimi davranır", deyə yazan erməni sosial şəbəkə seqmentləri əlavə edirlər ki, bütün bunlar həm də diplomatiyanın, xarici siyasətin və dövlət institutlarının fəaliyyətsizliklərinin, uğursuzluqlarının nəticəsidir.

"Nikolizm dövlətçiliyimizi daxildən dağıtdı və Ermənistanın hüdudlarından kənar təsirlərini sıfırlaşdırdı. Biz ləyaqətimizi itirmişik və bizim üzərimizdə ayaq silirlər. Biz nə qədər ki, bu satqınlara Ermənistanı təmsil etməyə yol veririksə, dünyanın reaksiyası barədə düşünməyə dəyməz, başqa cür olmayacaq da. Nə qədər ki, bizlər özümüzözümüzə hörmət etmiriksə, başqalarının bizə hörmət etməyini də gözləməyə ehtiyac yoxdur"

***Rövşən RƏSULOV***

# Vüqar Rəhimzadə: “Heydər Əliyev Fondunun yeni

***“İkinci Qarabağ müharibəsi nəticəsində yeni reallıqlar yaradan Azərbaycan nəinki bölgəni, bütövlükdə dünyanı erməni faşizmindən xilas etdi. Azərbaycan tarixi torpaqlarını işğaldan azad etməklə, XXI əsrin müharibə salnaməsinə yeni parlaq səhifələr yazdı. İşğaldan azad edilən ərazilərimizdə ermənilərin törətdikləri vəhşiliklər, dağıntılar bir daha Azərbaycanın 30 ildə necə dağıdıcı erməni faşizmi ilə üz-üzə qaldığını bütün dünyaya nümayiş etdirdi.***




Tarixi və dini abidələrimizi yerlə-yeksan etməklə bütün izləri



itirməyə çalışan erməni vandalları unutdular ki, bu torpaqların sahibi var və Qarabağ gec-tez öz sahibinə qayıdacaq, yenidən cənnət məkana çevriləcək. Ən əsası yağı düşmən tarixi nə qədər saxtalaşdırmağa, bu ərazilərin Azərbaycana məxsus olduğunu nə qədər inkar etməyə çalışsa da, tarix saxtakarlığı sevmədiyindən həqiqətin qalib gələcəyi, beynəlxalq hüququn bərpa ediləcəyi heç kimdə şübhə doğurmurdu. Çünki dövlətimizin başçısı İlham Əliyev nəyi nə zaman edəcəyini yaxşı bilirdi. Zaman gəldi və Azərbaycan gücləndi, münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdı, Azərbaycan əsgərinə “İrəli!” əmri verildi və 44 gün həqiqət anı kimi bütün qaranlıq məqamlara işıq saldı. Artıq Dağlıq Qarabağ münaqişəsi arxada qalıb, əzəli Azərbaycan torpaqları hazırda quruculuq və bərpa dövrünü yaşayır. İşğal olunmuş ərazilərdə 70 məscidi dağıdan, islami dəyərlərə, müsəlmanlara qarşı vandalizm siyasəti yürüdən ermənilər vəhşiliklərini gizlətməyə çalışsalar da, artıq özləri də bunun mümkünsüzlüyünün şahididirlər. İşğaldan azad edilmiş ərazilərimizi ziyarət edən, erməni silahlı qüvvələrinin törətdikləri cinayətlərdən dəhşətə gələn beynəlxalq təşkilatların nümayəndələri və digər xarici qonaqlar bir daha Qarabağ torpaqlarında heç yerdə görmədikləri faciənin, vandalizmin şahidi olduqlarını etiraf edirlər”. Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

Möhtərəm Prezidentimiz İlham Əliyevin tarixi və dini abidələrimizin bərpası ilə bağlı göstərişlər verdiyini, bu məsələdə Heydər Əliyev Fondunun fəal rol oynayacağını xüsusi vurğuladığını önə çəkən V.Rəhimzadə bildirib ki, Fond fəaliyyətə başladığı gündən ölkəmizdə müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir: “Fondun tarixi, dini abidələrin qorunub saxlanılması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan tarixi, dini abidələrimizin, o cümlədən məscidlərimizin bərpası layihəsinin həyata keçirilməsinə başlaması Böyük Qayıdışa misilsiz dəstəkdir. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcək. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəsmi “İnstagram” səhifəsindəki paylaşımında da bildirilir ki, bu günlər hər kəs Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qürurunu və sevincini yaşayır. 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarımız ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində azad edilmişdir. Əlbəttə, işğaldan



azad olunmuş torpaqlarımızdakı hazırkı mənzərəni hər birimiz ürək ağrısı ilə seyr edirik. Erməni təcavüzkarları bu illər ərzində şəhər və rayonlarımızı, oradakı yaşayış və inzibati binaları, bütün infrastrukturu dağıtmış, təbii sərvətlərimizi talan etmiş, bu ərazilərdəki dini, tarixi, mədəni abidələrimizi vandalizm aktlarına məruz qoymuşlar. Bir vaxtlar Azərbaycanın dilbər guşəsi olan Qarabağ bölgəsindəki abadlıqdan əsər-əlamət qalmamışdır. Paylaşımda bu əminlik ifadə edilir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün Qarabağ bölgəsini Azərbaycanın ən gözəl bölgələrindən birinə çevirəcəyik. Burada yenidən həyat canlanacaq, bütün rayonlarımız bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarında yaşayıb yaradacaqlar”.

V.Rəhimzadə diqqəti Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın İkinci Qarabağ müharibəsi dövründə özünün rəsmi “Twitter”, “İnstagram” səhifələrində etdiyi paylaşımlara yönəldərək bildirib ki, bu arzu hər zaman ifadə edilirdi ki, Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin. Bu istəyimizin gerçəkləşməsi üçün isə belə bir çağırış edilirdi ki, hər birimizin borcu Azərbaycanın mövqeyini müdafiə etməkdir. Nəinki döyüş meydanında, həm də kompüter qarşısında. Bu gün biz bir amalımız olan millət, xalqıq. Bizə zəfər lazımdır. Qalib gələn isə gücü birlik, ağıl və iradə ilə möhkəmlənən olur.

Baş redaktor dəmir yumruğun Qələbəmizin rəmzi seçilməsinin təsadüfi olmadığını da bildirərək vurğulayıb ki, bu yumruq həm gücümüz, həm də birliyimizdir: “Prezident İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad edilmiş torpaqlarımıza səfərləri, hər anın videogörüntülərinin çəkilməsi və Mehriban xanım Əliyevanın paylaşımlar etməsi Qələbə sevincinin doğurduğu qürurun aydın mənzərəsini yaradır. Möhtərəm Prezidentimizin ailə üzvləri ilə birlikdə Qarabağın tacı Şuşamıza səfəri, Cıdır düzündə cay süfrəsi arxasından ünvanladığı mesajlar da bu qürurun təqdimatı oldu. Dövlətimizin başçısı İlham Əliyev Vətən müharibəsi dövründə müsahibələrində “Şuşasız bizim işimiz yarımçıq olar” fikrini təsadüfən söyləməmişdir. Şuşaya səfəri zamanı isə bu fikirlərin davamı olaraq “Şuşanı Cıdır düzüsüz, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil” fikrini bildirdi. Bu çağırışlar özlüyündə öz tarixi sahibinə qayıdan torpaqlarımızın bərpası işinin necə yüksək səviyyədə təşkil olunacağının, “Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!” reallığının daim qorunub saxlanılacağının təsdiqidir”.

Vüqar Rəhimzadə bildirib ki, Heydər Əliyev Fondu daim Azərbaycanın mədəni irsinin təbliğinə böyük töhfələr verib: “Mehriban xanım Əliyevanın 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri seçilməsi Azərbaycan mədəniyyəti üçün tarixi nailiyyət, əlamətdar hadisələr kimi dəyərləndirilib. Bu, Azərbaycanın zəngin maddi və qeyri-maddi mədəni irs nümunələrinin dünyada tanıdılmasına yeni üfüqlər açılması demək idi. Muğam və aşıq sənətlərinin, Novruz bayramının, İçərişəhərin, tar ifaçılığı sənətinin UNESCO-nun nadir, şah əsərləri siyahısına daxil edilməsi Azərbaycanla bu təşkilat arasında əməkdaşlığın davamlılı-

# layihəsi Böyük Qayıdışı daha da yaxınlaşdırır"

ğına xidmət edən töhfələrdəndir. Azərbaycanın dünyanın ən qədim yaşayış məskənlərindən biri olduğunu açıq şəkildə göstərən Qobustan abidələrinin UNESCO-nun dünya mədəni və təbii irsinin qorunması siyahısına daxil olmasında da Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri vardır. Mehriban xanımın fəaliyyəti təkcə milli-mənəvi dəyərlərin, Azərbaycanın mənəvi və qeyri-maddi irsinin dünya miqyasında təbliğinə deyil, eyni zamanda, dünyada sülh, sabitlik, sivilizasiyalararası dialoq, multikulturalizm kimi bəşəri ideyaların reallaşdırılmasına, bu sahələrdə səylərin birləşdirilməsinə yönəlib. 2019-cu ildə Azərbaycanın ev sahibliyi etdiyi tədbirlər sırasında özəlliyi ilə diqqət çəkən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının ölkəmizdə keçirilməsində də Azərbaycanın Birinci vitse-prezidentinin rolu misilsizdir. Mehriban xanım Əliyevanın ICESCO-nun xoşməramlı səfiri kimi müsəlman dünyasının birliyi, həmrəyliyi istiqamətində atdığı addımlar da təqdirəlayiqdir. O, həmçinin müxtəlif mədəniyyətlərin, dinlərin qovuşuğunda yerləşən, tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verən Azərbaycanın bu mövqeyinin daha da möhkəmləndirilməsi istiqamətində də davamlı addımları ilə diqqət çəkir. Azərbaycanın bu gün Qərblə Şərq, Qərblə İslam dünyası arasında önəmli, etibarlı körpü rolu oynamasında, sivilizasiyalar və mədəniyyətlərarası dialoq sahəsində bir çox ölkələrə nümunə olması haqqında dünya ictimaiyyətinin müsbət təsəvvürünün formalaşmasında dövlətimizin başçısı İlham Əliyevlə yanaşı, Mehriban xanım Əliyevanın da böyük xidmətləri vardır".

Baş redaktor bu məqamı da xüsusi qeyd edib ki, münaqişənin həllində əhəmiyyətli rol oynayan informasiya müharibəsinə Heydər Əliyev Fondunun töhfələri böyükdür: "Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün müxtəlif dillərdə kitablar nəşr olunub. Bu vəsaitlərdə Qarabağın tarixi, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyəti, Ermənistanın işğalçı, terrorçu dövlət olması, Xocalıda XX əsrin ən dəhşətli soyqırımını törətməsi, erməni terror təşkilatlarının dinc azərbaycanlılara, türklərə qarşı vəhşilikləri barədə geniş məlumatlar öz əksini tapır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın həyata keçirdiyi "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində dünya ermənilərin əsl simasını görməklə yanaşı, bir sıra ölkələrin parlamentləri Xocalı faciəsini soyqırımı kimi tanıdı.

"Atılan hər bir addım bugünkü Qələbəmizi şərtləndirdi", söyləyən V.Rəhimzadə bildirib ki, Azərbaycanın diplomatik mübarizədə əldə etdiyi uğurlar 44 günlük müharibədə Zəfərinə, eyni zamanda, 10 noyabr üçtərəfli razılaşmasına yol açdı. Xalqımız dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində Böyük Qayıdış proqramının qısa zamanda gerçəkləşəcəyinə, cənnət Qarabağımızda tarixi və dini abidələrimizin bərpa olunacağına, Vaqif Poeziya Günlərinin, "Xarı bülbül" festivalının bərpa ediləcəyinə əmindir.

## Lilit Qalstyan: "Bu, Ermənistanın faciəsidir, Nikol dövləti oğurladı, qurumlar işləmir"



Nikolda daha çox cəhalət və ya fanatizm olduğunu söyləməkdə çətinlik çəkirəm və əslində, bunların hamısı, həm də az savadlı cəmiyyəti çaşdırmaq istəyi onun əsas silahı, komandasının əsas üslubudur. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Daşnaqsütyun partiyasının üzvü Lilit Qalstyan, tert.am-a verdiyi müsahibəsində deyib.

"Çox təəssüf ki, bu cür keyfiyyətlərə malik olan birisi hələ də faktiki olaraq Ermənistan Respublikasının baş naziridir. Bu, Ermənistanın faciəsidir. Parlamentdəki siyasi çoxluğun təvazökarlıqla bu cəfəngiyyatı dinləməsi də faciədir. Beynəlxalq ictimaiyyətin bu dəlilikdən necə sevindiyini təsəvvür etmək çətin deyil.

Ermənistan yazıq, bədbəxt olub. Gözümüzün qabağında dövlətçilik hissə-hissə dağıdılır. Nikol dövləti oğurladı, heç bir qurum işləmir", deyə Lilit Qalstyan fikirlərini açıqlayıb.

Qalstyan bir gün əvvəl Nikol Paşinyanın dediklərinə, Şuşanın əhalisinin 90 faizdən çoxunun azərbaycanlı olduğu, bu şəhərin Azərbaycana məxsus olduğu barədə dediklərindən qıcıqlandığını da gizlətməyib, onu savadsızlıqda, ağılsızlıqda, hətta dəlilikdə ittiham edib və fanatik bir xain adlandırıb.

"Nikol bəlkə də həqiqətən dəlilik nümayiş etdirməklə növbəti məhkəmə prosesindən yayınmağa çalışır! Və ya Ermənistandan qaçmağa zəmin hazırlayır. Hər halda, bunlar, qeyri-kafi bir insan olduğunu təsdiq edir", deyə Qalstyan bildirib.

## "Ermənilər bu dəfə əsgərlərimizin qəhrəmanlıqlarını oğurladılar"



Ermənilərin başqa millətlərdən, xüsusilə azərbaycanlılardan mədəni, tarixi, mətbəx oğurluqları etmələri sirr deyil. Ümumiyyətlə, erməni xüsusiyyətinə aid olan "oğru millət" faktoru nəinki müasir zamanlarımızda, eləcə də keçmiş dövrlərdə də bir çox tarixi şəxsiyyətlər tərəfindən etiraf və təsdiq olunub. SİA "Qolos morya" teleqram kanalına istinadən xəbər verir ki, bu dəfə ermənilər 44 günlük müharibə zamanı özlərinə məxsus kliplərində Azərbaycan əsgərlərinin rəşadətlərini öz adlarına çıxıblar. Belə ki, erməni müğənnisi Toma Arutunyanın "Ə priznaö artsax" (Mən "atrsaxı" tanıyıram-R.R.) adlı klipinin 1:02-ci saniyəsindəki səhnəsində Milli Ordumuzun artilleriyasının işi, 1:03-cü saniyəsində isə Azərbaycan əsgərlərinin döyüş səhnəsi göstərilib.

Onu da xatırladaq ki, ikinci Qarabağ müharibəsi davam edərkən, Ermənistan müdafiə nazirliyinin rəsmi çarxlarında Türkiyə seriallarındakı həyacan xarakterli musiqilərdən istifadə edilirdi. Ancaq ermənilər bir faktı unudublar ki, artıq intenet əsridir və istənilən informasiyadakı saxtakarlıqlar dərhal ifşa olunur. Onlar isə hələ də keçmiş əsrlərdəki oğurluq və saxtakarlıq xislətlərini 21-ci əsrin texnologiyasından gizlətməyə çalışırlar. Lakin göründüyü kimi, alınmır və oğurluqları dərhal üzə çıxır.

**Rövşən RƏSULOV**

## XƏBƏRDARLIQ: Peyvəndi təsirsizləşdirən hansı məhsullardır?




Son günlər, xüsusilə dünyanın müxtəlif ölkələrində başladılan koronavirus əleyhinə peyvəndlər haqqında fərqli informasiyalar yer alır, ümumiyyətlə, COVİD-19-a qarşı peyvənd pereparatları arasında müxtəlif fikirlər səsləndirilir, hətta bir sıra məqamlarda onun təsirinin mənfi hallara yol açması barədə iddialar irəli sürülür. Azərbaycanda da sürətli peyvəndləmə işlərinə start verilib və müxtəlif yaş, eləcə də sosial mühit təbəqələrinə ayrılan əhali arasında vaksinin təsirləri ətrafında məlumatlar yayılır.

SİA xəbər verir ki, bununla bağlı Türkiyənin tanınmış həkimi, professor Hakan Öğuztürk maraqlı məqamlara toxunub və qeyd edib ki, əslində sağlam həyat sürən insanlarda mənfi təsirlərin baş verməsi elə də inandırıcı görünmür. Tvnet-ə danışan professor hesab edir ki, peyvənd şübhəsiz ki, immunitet sistemində virusa qarşı güclü immun mexanizminin əmələ gəlməsinə səbəb olacaq, lakin təəssüf ki, alkoqol ona mənfi təsir göstərir və peyvəndin təsirini azaldır. "Spirtli içki təkcə COVİD-19-a qarşı deyil, ümumiyyətlə, bütün peyvəndlərə öz mənfi təsirlərini göstərir", deyən Hakan Öztürk hesab edir ki, peyvənd edilməzdən 10 gün öncə və bir ay sonra qəti şəkildə alkoqollu içkilər qəbul etmək yasaqdır. "Siqaret çəkmək də peyvəndin təsirlərini azaldır", deyə türkiyəli həkim vurğulayıb.

**Rövşən RƏSULOV**

## Baş Prokurorluq: Vəzifəli şəxsin qanunsuz hərəkətləri ifşa olunub



Sosial təminat sahəsində vətəndaşların hüquqlarının pozulmasına yönəlmiş qanunsuz hallara qarşı prokurorluq orqanları tərəfindən mübarizə tədbirləri davam etdirilir. Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, belə tədbirlərin davamı kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) vəzifəli şəxsinin qanunsuz hərəkətləri barədə daxil olmuş materiallar əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Aparılmış istintaqla müəyyənləşdirilib ki, DSMF-nin Qusar rayon şöbəsində vəfat etmiş və digər səbəblərə görə kart hesabları bağlanmayan pensiyaçıların, habelə əvvəlki dövrlərdə ailə başçısını itirmə növünə görə təyin olunmuş pensiya işləri üzrə ödəniş müddəti bitmiş vətəndaşların, eləcə də yaşlı və xəstə olmaları səbəbindən pensiyalarını bankomat vasitəsilə nağdlaşdıra bilməyən cəmi 47 vətəndaşın plastik kartlarına əsassız olaraq ümumilikdə 480 min manat pul vəsaiti köçürülərək ələ keçirilib.

Toplanmış sübutlarla cinayət hadisəsinin baş verdiyi dövrdə DSMF-nin Qusar rayon şöbəsinin müdiri vəzifəsində işləmiş olan Arif Tahirov və Azər Cəbrayılov, həmin şöbənin mühasibat uçotu sektorunun müdiri vəzifəsində işləmiş Mətanət Əhmədova, habelə Qusar rayonunun Gündüzqala poçt şöbəsinin müdiri vəzifəsində işləmiş Nasir Abdullayev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməklə barələrində polisin nəzarəti altına vermə və başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılaraq baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Vurulmuş ziyanın 268 min manatlıq hissəsi istintaq zamanı ödənilib.

# “Dostluq” yatağı üzrə memorandumun imzalanması tarixi hadisədir



***Prezident İlham Əliyev Azərbaycanın neft-qaz hasilatı, nəqli, ölkəmizin enerji potensialının daha da yüksəldilməsi istiqamətində yeniliklərin olacağını hələ 2020-ci ilin yekunlarına dair müşavirədə anons etmişdi. Ötən gün Azərbaycanla Türkmənistan arasında enerji sahəsində əməkdaşlığa dair Memorandumun imzalanması bu yeniliklərin ilk nümunəsidir.***

Əlbəttə, imzalanmış Memoranduma əsasən yatağın “Dostluq” adlandırılması iki ölkə arasında dostluğun, qardaşlığın, qarşılıqlı əlaqələrin həm də tarixi etnik-dini ənənələrə söykənməsinin bariz nümunəsidir. Bu mənada, memorandumun imzalanması tarixi hadisədir, həmçinin Azərbaycanın neft-qaz strategiyasının inkişafında böyük əhəmiyyətə malikdir.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.

Bu yataqdan hasil olunacaq neft və qazın Azərbaycanın mükəmməl və əhatəli infrastrukturu, o cümlədən ixrac kəmərləri vasitəsilə daşınacağını vurğulayan Sədaqət Vəliyeva bildirib: “Bu sənəd, həmçinin Xəzər dənizinin dibinin bölünməsi üzrə dialoqun və əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. Sözügedən layihənin çox böyük beynəlxalq və regional əhəmiyyəti var. Bu baxımdan, sənədin imzalanması sübut edir ki, Xəzər dənizində bütün məsələlər dialoq və əməkdaşlıq mühitində həll oluna bilər. Sənəd Xəzər dənizi regionunda enerji və nəqliyyat-kommunikasiya layihələrinin həyata keçirilməsi, xarici investorların bu layihələrə cəlb edilməsi, habelə Azərbaycanın nəqliyyat-tranzit potensialının möhkəmlənməsi üçün yeni imkanlar yaradır. Razılaşmanın əldə edilməsi, eyni zamanda, Xəzər dənizinin sülh, mehriban qonşuluq və dostluq dənizi olması ideyasını möhkəmləndirir, Xəzərdə əməkdaşlıq və qarşılıq etimad mühitinin gücləndirilməsinə töhfə verir. Hətta bu il Türkmənistanın təşəbbüsü ilə keçiriləcək Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti Zirvə görüşü ərəfəsində memorandumun imzalanması bu dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsinin bariz nümunəsi kimi səciyyələdirilir”.

Deputat qeyd edib ki, memoranduma əsasən, yataqdan hasil olunacaq neft və qaz Azərbaycanın mükəmməl, əhatəli infrastrukturu və ixrac kəmərləri vasitəsilə daşınacaq. Bu da Azərbaycanın nəqliyyat-tranzit potensialının möhkəmlənməsinə yeni imkanlar yaradacaq və tranzit ölkə kimi əhəmiyyətini artıracaq. Bu sənədin imzalanması Azərbaycanla Türkmənistan arasında energetika və nəqliyyat-kommunikasiya sahələrində əməkdaşlığın yeni mərhələyə yüksəldilməsində çox önəmli addımdır.

Sədaqət Vəliyeva diqqətə çatdırıb ki, memorandumun imzalanması Xəzər dənizi regionunda qarşılıqlı faydalı və beynəlxalq tərəfdaşlığın inkişafı üçün əlverişli şəraitin yaradılmasına yönəlib. “Eyni zamanda, memorandumun imzalanması Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu, həmçinin Xəzərdə Türkmənistan ilə Azərbaycanın energetika sahəsində əməkdaşlığında yeni mərhələ deməkdir. Ona görə də heç şübhəsiz ki, “Dostluq” yatağında Türkmənistanın və Azərbaycanın birgə işi uğurlu və səmərəli olacaq”, - deyə o qeyd edib.

# “Ermənilərin ən böyük problemi öz uydurduqları yalanlara özlərinin inanmalarıdır”



“Utanmasan, oynamağa nə var ki...” zərb-məsəlinin ermənilərə xitabən deyildiyinə heç vaxt şübhə etməmişəm. Çox güman ki, bu zərb-məsəli vaxtilə Qarabağda, yaxud İrəvanda, Zəngəzurda, Dərələyəzdə və digər Azərbaycan torpaqlarında məskunlaşdırılan, özlərinə məxsus heç nəyi olmayan, tarixsiz, soysuz-köksüz, mənşəyi bilinməyən, milli musiqimizin sədaları altında görmədikləri günləri yaşadıqlarına sevinib atılıb-düşən ermənilərin utanmazlığından utanan dədə-babalarımız deyiblər. Özgə havalarına oynamaqdan utanmayan bu tayfanın Azərbaycan torpaqları üzərində, elə özgələrinin qurduğu “dövlət”dən üstümüzə dil uzadan təmsilçiləri 44 günlük müharibə nəticəsində necə darmadağın olduqlarına klassik üslublarına, ənənələrinə uyğun ağlamaq yerinə, yenidən havalanıblar və deyəsən yeni “hava” istəyirlər.

Bu fikirləri AZƏRTAC-a siyasi ekspert Elçin Mirzəbəyli bildirib. Ekspert deyib: “Xarici işlər naziri Ara Ayvazyanın Ermənistanın düçar olduğu bədbəxtliyin real nümunələrindən biri sayıla biləcək son sərsəmləməsi də sübuta yetirir ki, vaxtilə Şuşada, Cıdır düzündə Azərbaycan havasına atılıb-düşən Paşinyanın 44 gün ərzində aldığı və oynadığı “hava” onlara bəs etməyib. Azərbaycan torpaqlarından “iti qovan kimi qovulanlar”ın “baş diplomat” statuslu nümayəndəsi Ayvazyan “Şuşa ermənilərin mədəniyyət mərkəzidir” deməklə aya vızıldayır. Təsəvvür edə bilmirəm ki, dünyada göz önündə olan və hər kəsin bildiyi tarixi həqiqətləri bu qədər sərhədsiz həyasızlıqla təhrif edə biləcək ikinci bir oğru tayfa və onun Ara Ayvazyan kimi yalan üyüdən təmsilçiləri olsun. Ləyaqəti, şərəfi, azacıq da olsa özünə, mənşəyinə, kimliyinə hörməti olan bir kimsənin belə qırmızı iddialarla çıxış edə biləcəyini ağlıma sığışdıra bilmirəm.

Ermənistan ordusunun darmadağın olmasından sonra ermənilərin azacıq düşünməyi bacaran təmsilçiləri etiraf edirlər ki, bir toplum olaraq ən böyük problemləri reallıq hisslərini itirmələri, arzu və istəklərini gerçəklik kimi qəbul etmələridir. Amma təbii ki, ən vacib məqamı dilə gətirməyiblər. Ermənilərin ən böyük problemi öz uydurduqları yalanlara özlərinin inanmalarıdır. İndi təsəvvür edin, bu “Aya vızıldayanlar” 28 il işğal altında olan tarixi Azərbaycan şəhəri və tarixən azərbaycanlıların yaşadığı, Azərbaycanın mədəniyyət mərkəzi statusunu bəşəriyyətə bəxş etdiyi yüksək mədəniyyət nümunələri ilə qazanmış Şuşanın “ermənilərin mədəniyyət mərkəzi” olduğunu iddia edə bilirlərsə, görün yüz il və daha çox illər bundan öncəki hadisə və faktları necə təhrif edə, öz miskin yalan dəyirmanlarında hansı iyrəncликləri üyüdə bilərlər.

Maraqlıdır, əgər Ayvazyan klassik erməni yalanına özünü inandıra bilirsə, o zaman Ermənistan və ermənilər tərəfindən Şuşanın yerlə-yeksan edilməsinin, buradakı maddi və mədəni irsin dağıdılmasının izahını necə verəcək? Belə çıxır ki, ermənilər olmayan mədəniyyətlərinin “mərkəzi”nə də qənim kəsiliblər.

Prezident İlham Əliyevin yanvarın 14-də Şuşaya səfəri zamanı ürək ağrısı ilə dediklərinin hər kəlməsini olduğu kimi xatırlayıram. Sitat: “Onların ürəyində nə qədər düşmənçilik hissi olmalı idi ki, bax, bu vəhşiliyi törətsinlər... Erməni vandalları bizim bütün şəhərlərimizi yerlə-yeksan etdilər. İndi azad edilmiş torpaqlarda olarkən bunu öz gözümlə görürəm və bütün dünya görməlidir.

... “Ermənistan saxtakarlıq edərək bütün dünyaya Şuşa haqqında uydurmalar çatdırırdı ki, guya Şuşa onların qədim şəhəridir. Pənahəli xanın saldığı şəhər necə erməni şəhəri ola bilər?! Axı, bu, yaxın tarixin işidir, hadisələridir. Əgər onlar bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün belə bərbad vəziyyətə qoydular, nə üçün bütün binaları dağıtdılar? Görün, nə gündədir bu şəhər?! Daş üstə daş qalmayıb 30 il ərzində, ancaq özləri üçün villalar tikdiriblər, özləri üçün şərait yaradıblar”.

... İndi Ermənistan adlı dövlətin yerləşdiyi tarixi Azərbaycan-türk torpaqlarından izlərimizi silən, İrəvan qalasını yerlə bir edən ermənilər Azərbaycanın mədəniyyət mərkəzini - Şuşanı da yer üzündən silməyə çalışırdılar. İşğal bir neçə il də davam etsəydi Şuşada daş üstə daş qalmayacaqdı. Tarixi və mədəni abidələrimizin daşları ilə özlərinə bədheybət, zövqsüz villalar, evlər tikəcəkdilər. Üstünə də mədəni mövcudluqlarının yeganə rəmzi çevirdikləri və inanc kimi deyil, başqalarına qarşı etdikləri naqisliklərə görə cəzasız qalmaları, himayə olunmaları üçün yararlandıqları, sirkə ilə “tarixi görkəm” verdikləri simvolları yapışdıracaqdılar. Vəssalam. Onların əlindən bundan başqa heç nə gəlmir. Çünki dağıtmaq, uçurtmaq, yerlə bir etmək, mənimsəmək, oğurlamaq üçün yaranıblar.

Şuşa isə nəinki Azərbaycanın, bütövlükdə türk və İslam dünyasının mədəniyyət paytaxtı olmağa layiqdir və olacaq da!”.

# Mikael Minasyan: “Nikol reallığımızın lakmus sınağı oldu və dövlət, cəmiyyət olmadığımızı göstərdi”



“Paşinyan Şuşanın Azərbaycan şəhəri olduğunu söyləməsindən sonra, bir vaxt Şuşada döyüşənlər, komandirlər hələ də susurlar.” SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə Ermənistanın Vatikandakı keçmiş səfiri Mikael Minasyan öz Facebook səhifəsində yazıb.

O öz səhifəsində Paşanyan Şuşanın Azərbaycan şəhəri olduğunu söyləməsindən qıcıqlandığını gizlətməyib.

“Nikolun Şuşa haqqında bu cür sözlər danışmasından, bu şəhərin Azərbaycana məxsus olmasını etiraf etməsindən bir sutka ötüb. Amma deyəsən, nifrət və təəccüb belə keçib gedib və hər şey sanki unudulub. Razılaşın ki, Nikol Şuşanın ermənilərin əlindən getməsini həzm edibsə, Şuşanın tarixini etiraf etməsi də gözlənilləndir. Erməni baş nazirin belə etirafları ilk dəfə deyil, Paşinyan parlament tribunasından da belə etiraflar az etməyib. Bir az çox, bir az daha az olmaqla həmişə bunu edib. Məni maraqlandırır ki, Paşinyanın Şuşanın Azərbaycan şəhəri olması barədə dedikləri niyə reaksiya doğurmadı? Ermənistanın baş nazirinin Şuşanın bir Azərbaycan şəhəri olması barədə açıqlamasına reaksiya belə olmadı. Heç bir tarixçi reaksiya göstərmədi, Milli Elmlər Akademiyası Tarix İnstitutu susdu. Təhsil aldığım Puşkin məktəbinin tarix müəllimləri susurlar. Tədqiqatçılar susur. Erməni xalqının tarixinin yeni təfsiri ilə razılaşdıqlarına görəmi hamı susur?

Nikol reallığımızın lakmus sınağı oldu. Nikolun vəhşi çıxışları, gücün ən ibtidai göstəriciləridir ki, bu da əslində, dövlətimizin olmadığını, siyasi sahə və ciddi cəmiyyət olmadığımızı göstərir”, deyə Mikael Minasyan etiraf edib.

***İnam Hacıyev***

# Bakıda baş verən yol qəzalarında 106 piyada ölüb



2020-ci il Bakıda piyadaların vurulması ilə nəticələnən yol qəzaların sayı saçıqlanıb. SİA-nın məlumatına görə. bu barədə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi, polis polkovniki Vaqif Əsədov məlumat verib. O bildirib ki, yol-nəqliyyat hadisələrinin 57.8 faizini (yəni, 266 fakt) piyadaların vurulması təşkil edib. Nəticədə 62.7 faiz (106 nəfər) həlak olub, 43.7 faiz (169 fakt) müxtəlif dərəcəli xəsarət alıb.

# Şuşa: Azərbaycan mədəniyyətinin incisi!



***"Azərbaycan xalqının qürur və fəxarət mənbəyi olan qədim Şuşa yağı tapdağından azad olundu. "Qafqazın Parisi", Qarabağın incisi olan Şuşa həm də qədim yaşayış məskənidir. Alınmaz qalanın təməlinin dəqiq tarixi məlumdur - 1750-ci il, Pənahəli xanın əmri ilə Təbrizdən, Ərdəbildən və digər şəhərlərdən xan üçün yeni binalar və saray tikən məşhur ustalar dəvət edildi. Qalanın "İrəvan" və "Gəncə" adlanan iki qapısı var idi. 1755-ci ildə Şuşa Qarabağ xanlığının paytaxtı oldu. 1795-ci ilə qədər burada 10 mindən çox insan yaşayırdı".***

Bu fikirləri "İki sahil"ə açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının doktorantı, AMEA Mərkəzi Elmi Kitabxanasının əməkdaşı Züriyə Qarayeva deyib.

Z. Qarayeva bildirib ki, Şuşa memarlığı üzrə aparıcı mütəxəssis, rəssam və memar Elturan Avalov birinci mərhələdə qala divarları və sarayları ucaldarkən, şərq hissəsinin-Aşağı Məhəllələrin meydana gəlməsi Şuşanın əsası qoyulduğu zamana aid edilir: "İkinci mərhələ, şərq hissəsinin yuxarı hissəsinin inşa edildiyi- Yuxarı Məhəllələrin meydana gəldiyi dövr İbrahimXəlil xanın (1762-1806) hakimiyyəti dövrüdür. Və nəhayət, 1805-ci ildən bəri şəhərin tikintisinin üçüncü mərhələsi onun qərb hissəsinin böyüməsinə səbəb oldu. Tarixçi və vəzir Mirzə Vəli Baharlı (1725-1795) əsərlərində Şuşanın şərq tərəfinin aşağı hissəsində yerləşən Çuxur Məhəllədən yazır. Şəhərin ümumi inkişafı Pənahəli xanın oğlu - İbrahimxəlil xanın (1732-1806) dövründə başladı. Bu zaman Qarabağ xanlığı ən güclü Azərbaycan xanlıqlarından biri oldu.

Həmsöhbətimiz qeyd edib ki, o zaman şəhərin ən yaxşı memarlıq binaları tikildi: "O dövrdə Şuşanın 17 məhəlləsi 4 yerə bölündü. Bunlardan doqquzu aşağı: Qurdlar, Seyidli, Quyuluq, Çuxur, Dördlər yurdu, Hacı Yusifli, Dörd çinar, Çöl qala və Culfalar, səkkizi yuxarı: Mərdinli, Saatlı, Köçərli, Mərcanlı, Dəmirçilər, Mamayı, Hamamqabağı və Təzə məhəllə. Hər məhəllənin məscidlərinin yerləşdiyi ərazi (Aşağı Gövhərağa, Yuxarı Gövhərağa, Malbəyliağa, Qaybala, Şirlan və s.) ilə yanaşı, bir məktəb və ya bir mədrəsə ilə öz icma mərkəzi var idi. Hamam, ticarət mərkəzi və bulaqlar (Meydan, İsa, Saxsi, Şor,Ovdan, Xan qızı Natəvan və s.) da şəhərə bir gözəllik verirdi. Sakinlər qürurla özlərini Qalalı adlandırırdılar".

Z. Qarayeva vurğulayıb ki, köhnə Şuşadakı evlər əsasən malikanə tipli idi: "Hamısının meyvə bağları vardı və ətrafı daş hasarlarla əhatə olunmuşdu. Küçələrin kəsişməsində, piyadaların və nəqliyyatın rahatlığı üçün hasarların və ya evlərin küncləri kəsilmiş daşla hörülmüşdü. Səkilər böyük düzbucaqlı daş lövhələrlə örtülmüşdü. Küçələr parket daşları ilə döşənmiş, mənzərəli bir şəkildə dolaylı, dik yoxuşlar və enişlər var idi. Şuşanın küçələri yağ lampaları ilə işıqlanırdı. XIX əsrin sonlarında şəhərdə təxminən 30 belə lampa var idi.

Təbiəti dillərə dastandır Şuşanın. Səfalı yaylaqları, füsunkar Cıdır düzü, soyuq, xeyirli, dumduru İsa bulağı, Turşsuyu Şuşanı bütün dünyaya tanıtdırıb. Cıdır düzü Şuşanın daha yüksək hissəsindədir. Cıdır düzü Daşaltı çayının 200 metr aşağısından axan Daşaltı dərəsinə baxır. Cıdır düzünün kənarındakı cığır Xan mağarasına doğru gedir. Xan mağarası erməni vandalizminin qurbanı olan arxeoloji abidələrimiz sırasındadır. İsa bulağı Azərbaycan təbiətinin nadir incilərindən biridir. Yerli əhalinin məlumatına görə, bulaq XVIII əsrdə ilk dəfə onu qalın meşəlikdə üzə çıxarmış İsa adlı əkinçinin adını daşıyır".

Z. Qarayeva Şuşanı mədəniyyətimizin incisi adlandırıb: "Cabbar Qaryağdıoğlu, Keçəçi Məhəmməd, Məşədi Dadaş, Sadıqcan, Üzeyir Hacıbəyli, Bülbül, Xan Şuşinski və daha onlarla məşhur musiqiçilər diyarıdır. Qarabağ torpağı, həmçinin Molla Pənah Vaqif, Qasım bəy Zakir, Xurşudbanu Natəvan, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Mir Mövsüm Nəvvab, Fatma xanım Kəminə, Yusif Vəzir Çəmənzəminli, Süleyman Sani Axundov kimi şair və yazıçıların Vətənidir. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı, musiqi mərkəzi adlandırılması mədəniyyətimizdə iz qoymuş dünya şöhrətli dahilərin ruhlarını da şad etdi. Ecazkar səsləri ilə bir çox ölkələrdə ayaqüstü alqışlar qazanan Qarabağ müğənnilərinin yeni nəsil davamçıları, məhz bu mərkəzin yaradılması ilə dilbər guşəmiz olan Qarabağı, ölməz şəhidlərimizin qanı ilə azad olunan Xarı bülbülün yeganə vətəni olan Şuşanı dünyada daha geniş təbliğ edəcəklər".

***Nigar Orucova***



## Ermənilər yenidən qaşınırlar: bu dəfə növbəti "güc strukturu" formalaşdırmaqla

Ermənilər Xankəndində yenidən fəallaşmağa başlayıblar. SİA erməni KİV-lərinə və teleqram kanallarına istinadən xəbər verir ki, mövcud olmayan "dqr"in qondarma "hakimiyyəti" bu dəfə "struktur" formalaşdıracaqlarını bildiriblər. "Artsaxda" daxili işlər nazirliyi yaradılacaq və fövqəladə hallar nazirliyi ilə polis həmin tərkibə daxil olacaq", deyə məlumatlarda qeyd olunur.

Bu isə sübut edir ki, separatçı quldurlar bir neçə ay öncə aldıqları ağır və sarsıdıcı zərbələrdən ayılmamış yenidən, sözün əsl mənasında, qaşınırlar. Maraqlıdır ki, üçtərəfli bəyanatın 4-cü bəndində əldə edilmiş razılaşmaya rəğmən, Rusiya sülhməramlılarının nəzarət etdikləri bölgələrə daxil olmaları anından etibarən, ermənilərə məxsus bütün silahlı dəstələr tərksilah olunmalı idi. Təəssüf ki, hələ də bu səndə riayət olunmur və tamamilə əksinə olan addımlara gedilir, üstəlik, Xankəndində "güc strukturları" yaradılır. Bu isə bütün hallarda yolverilməzdir!

Ümid edirik ki, separatçıların və terrorçuların bu kimi təhrikedici və qanunsuz əməllərinə istər diplomatik, istərsə də digər yöndə lazımi və müvafiq, həmçinin sərt cavablar veriləcək. Rusiya sülhməramlıları isə üzərlərinə düşən vəzifələri ni hərbi təlimlər, məktəblərdə "humanitar" məşğələlər keçirməklə deyil, regiondakı vəziyyəti yenidən gərginləşdirə biləcək bu kimi qanunazidd hərəkətlərin qarşısını almaqla icra edəcəklər. Xatırladaq ki, bir neçə gün əvvəl separatçılar ikinci Qarabağ müharibəsində istifadə etdikləri silah-sursatlarını da KİV-lər və sosial şəbəkələr vasitəsi ilə nümayiş etdirmişdilər.

***Rövşən RƏSULOV***

## Xəzərin səviyyəsinin aşağı düşmə ehtimalı varmı?

Son vaxtlar Xəzər dənizinin səviyyəsi ilə bağlı müxtəlif fikirlər mətbuatda yer alır. Bəzi xarici tədqiqatçılar öz elmi araşdırmalarında rəqəmli modellərin nəticələrini açıqlayaraq əhalidə ciddi narahatlıq yaradan fərziyyələr səsləndirirlər. SİA-nın məlumatına görə, bunu ETSN Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva bildirib. Onun sözlərinə görə, bunlardan biri də dənizin gələcəkdə 9-18 metr aşağı düşəcəyi haqqında proqnozla bağlıdır.



U.Tağıyeva əhaliyə bu cür proqnozların heç bir tarixi əsasının olmadığını və yalnız yüzdə bir faiz ehtimal oluna biləcək bir fərziyyə kimi nəzərə almalarını tövsiyə edib. "Ötən əsrin ikinci yarısında Xəzər dənizinin səviyyəsində müşahidə olunmuş səviyyə tərəddüdləri mütəmadi xarakter daşıyıb. Belə ki, 1977-ci ildə dənizin səviyyəsi XX əsrdə müşahidə olunan ən aşağı həddə - Baltik sistemi ilə - 29 metrə qədər azalıb və sonradan dənizdə suyun səviyyəsi qısa tarixi dövr ərzində (1977-1995-ci illər) 2,5 metr artaraq -26,5 metrə çatıb".

Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədovun sözlərinə görə, Xəzər dənizi üzərində aparılmış uzunmüddətli müşahidələr əsasən dənizin səviyyəsinin dəyişmə amplitudası son 100 ildə 3 metrdən artıq olmayıb.

"Avropalı alimlərin verdiyi proqnoz, onların Xəzər dənizinin cazibə səviyyəsi barədə anlayışlarının olmadığını göstərir. Cazibə səviyyəsi o deməkdir ki, dənizin səviyyəsi qaxdıqca güclü buxarlanma baş verir və səviyyənin aşağı düşməsinə səbəb olur. Səviyyə azalanda dənizdə buxarlanma da azalır və nəticədə suyun səviyyəsinin yenidən qalxır".

Akademik onu da qeyd edib ki, riyazi modellərin nəticələrinin təhlilində istənilən ərazinin təbii-coğrafi şəraiti nəzərə alınmalıdır. Əks halda həqiqətə uyğun olmayan bu cür yanlış proqnozlar üzə çıxmış olur. "Dəniz səviyyəsinin dinamikası barədə uzunmüddətli proqnoz verməkmümkün deyil. Bunun səbəbi iqlim faktoru ilə bağlı kifayət qədər qeyri-müəyyənliklərin olması, dənizə tökülən iri çayların sululuğunun həcmi, baş verən dənizdibi tektonik proseslər və digər amillərlə izah edilir".

## Bakı metrosu nə zaman açılacaq?



Bildiyimiz kimi, yanvarın 18-dən etibarən Azərbaycanda sərt karantin qaydaları mərhələli şəkildə yumşaldılması prosesinə başlanılıb. İndi isə hər kəsi bir sual maraqlandırır: Bəs metro nə zaman açılacaq?

"Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Bəxtiyar Məmmədov "İki sahil"in sorğusuna cavab olaraq bildirdi ki, ölkəmizdə yaranmış pandemiya ilə mübarizə şəraitində bu məsələlərin hər biri, o cümlədən də Bakı Metropolitenin sərnişindaşıma fəaliyyətinin bərpası, ya da dayandırılması məhz Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən tənzimlənir. Bu səbəbdən də, bu suala hər hansı cavab verməyim qeyri-mümkündür. Qeyd etməliyim ki, hazırda bizə rəsmi və ya qeyri- rəsmi formada hər hansı tapşırıq verilməyib.

Həmsöhbətimiz qeyd edib ki, sərnişindaşımanın həyata keçirilib-keçirilməməsindən asılı olmayaraq, "Bakı Metropoliteni" infrastrukturunun qorunub-saxlanması, sağlamlığın təminatı istiqamətində gündəlik iş rejimində öz tədbirlərini davam etdirir. Çünki metropoliten mürəkkəb, çoxşaxəli infrastruktura malikdir. Eyni zamanda, yeraltı nəqliyyat vasitəsi olduğu üçün bu addımların atılması məcburidir və daimi tələb olunan bir məsələdir. Çünki metropolitenin həm təlimat tələbləri, həm də texniki-normativ sənədlərində də metronun infrastrukturuna necə qulluq olunmalıdır deyə bunlar hamısı müəyyən olunubdur. Yəni, bu qaydalara tam əməl olunmaqla metropolitendə gündəlik iş rejimi şəraitində işlər aparılır.

B.Məmmədov sonda əlavə edib ki, nə vaxt qərar çıxarsa, metropoliten qərarı icra etməyə infrastruktur baxımından tam hazır olacaqdır.

***Yaqut Ağaşahqızı***

# Maddi-mədəniyyət abidələrinin dağıdılması bəşəri cinayətdir

*Azərbaycan torpaqları 30 ilə yaxın müddət ərzində Ermənistanın işğalı altında qaldığından bu ərazilərdəki mülki əhaliyə məxsus evlər, infrastruktur obyektləri ilə yanaşı, tarixi, mədəni və dini abidələrimiz də daşnaklar tərəfindən vəhşicəsinə dağıdılıb. Hətta bir çox hallarda dini abidələrimiz təhqirə məruz qalıb.*



Düşmənin ən çox dağıtdığı mədəni irs nümunələri sırasında isə İslam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri daha çox diqqət çəkir. Ermənistanın xüsusi əhəmiyyətə malik unikal abidələrimizə bu cür barbar münasibəti dünya irsinə qarşı yönələn təhdiddir. Bütün bunlar onu göstərir ki, Ermənistan xristianlığın dəyərlərini də qorumur. Belə ki, xristian dini dəyərlərində başqalarının məbədlərinə qarşı vandalizm heç vaxt müsbət qarşılanmır. Ümumiyyətlə, düşmənin müqəddəs yerlərə qarşı bu cür çirkin hərəkətləri nə dinə, nə də insanlığa sığır.

Rəsmi məlumata əsasən, işğal edilmiş ərazilərimizdə tarixi-dini abidələrin ümumi sayı 403-dür. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahdır. Qəbiristanlıqların sayı isə 900-dən artıqdır. İşğal olunmuş ərazilərdə qalan və İslam dövrünə aid tarixi abidələrin xüsusi amansızlıqla dağıdılmasının səbəblərindən biri də onların üzərində müsəlman epiqrafiyası ilə yazıların olmasıdır. Məhz buna görə bu abidələri erməniləşdirmək və qeyri- Azərbaycan abidələri kimi təqdim etmək mümkün deyil. Elə bu səbəbdən də Dağlıq Qarabağ və ətraf rayonların ərazilərində rəsmi fəaliyyət göstərmiş 67 müsəlman məscidinin (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 8) 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınmışdır.

Ermənilərin çirkin əməlləri onlar üçün heç bir müqəddəs dəyərin olmadığını göstərir. Buna baxmayaraq onlar çox zaman Azərbaycanı dini dözümsüzlükdə ittiham edir, həyasızcasına bizi din savaşı aparmaqda suçlayırlar. Halbuki Azərbaycan həmişə tolerant və multikultural ölkə kimi tanınıb. Ölkəmizin ərazisində bütün dinlərə məxsus olan abidələr dövlət səviyyəsində qorunub, məscidlərlə yanaşı, sinaqoqlar, yeni kilsələr inşa edilib. Hətta Bakı şəhərinin mərkəzindəki erməni kilsəsi dövlət tərəfindən qorunan abidələr siyahısına salınıb. Ermənilər isə əksinə, İslam mədəniyyətinin incisi olan məbədləri dağıdıb, regionda dini müharibə məsələsini qızışdırmağa və bu münaqişəni xristian-müsəlman qarşıdurması kimi təqdim etməyə cəhd göstəriblər.

İşğaldan azad edilən ərazilərin boşaldılması ilə əlaqədar Ermənistan tərəfindən maddi-mədəniyyət nümunələrinin düşmən ölkəyə daşınılması faktı aşkarlanıb. Arxeoloji eksponatların oğurlanıb İrəvana aparılması təsdiqlənib. Düşmən bununla kifayətlənməyərək, işğaldan azad edilən ərazilər boşaldılarkən, həmin yerlərdə maddi-mədəniyyət nümunələrimizi məhv etməklə bərabər, torpaqları minalayır, hərbi hissələri dağıdır, yaşayış məntəqələrindən çıxarkən meşələri və evləri yandırır, hətta məktəblərə belə od vurmaqdan çəkinməmişlər.

Yeri gəlmişkən, Fransanın "Le Monde" nəşrində dərc edilən "Ruhlar şəhəri" məqaləsində də erməni vandalizmindən bəhs edilir. Məqalədə deyilir: "Torpaqlarını geri qaytaran Azərbaycan Ordusunun qarşısına yalnız "ruhlar şəhəri" çıxır: Mərmilərlə "şumlanmış" səngərlər, dağıdılmış qəbiristanlıqlar, minalanmış ərazilər..."

Şübhə yoxdur ki, işğaldan azad olunmuş torpaqlarımızda Azərbaycan xalqının tarixi abidələri yenidən bərpa olunacaq, bəşəri sərvət kimi qorunub saxlanacaq. Prezident İlham Əliyevin dediyi kimi, işğaldan azad olunmuş şəhərlərimizi yenidən abadlaşdıracağıq, o kəndlərə qayıdacağıq: "Biz öz torpaqlarımızı yenidən abad, müasir şəhərə çevirəcəyik. Bu torpaqlara yenidən həyat qayıdacaq". O an artıq yetişib...

***Cavid Əkbərov***

# AZƏRTAC-ın İdarə Heyəti sədrinin "İnformasiya yaradıcılığı: standartlar və yeni yanaşmalar" kitabı Türkiyədə nəşr olunub




**AZƏRTAC-ın İdarə Heyətinin sədri, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) vitse-prezidenti Aslan Aslanovun "İnformasiya yaradıcılığı: standartlar və yeni yanaşmalar" kitabı Avrasiya Yazıçılar Birliyi (AYB) tərəfindən Ankarada türk dilində nəşr olunub.**

Ankara Hacı Bayram Vəli Universitetinin jurnalistika fakültəsinin dekanı, professor Zakir Avşarın rəyi və elmi redaktorluğu ilə işıq üzü görən nəşrin baş redaktoru AYB-nin sədri Yaqub Ömərоğludur.

Professor Zakir Avşarın rəyində vurğulanır ki, təcrübə və elmi biliklərin toplandığı kitabda dünyada və Azərbaycanda xəbər agentliklərinin, eləcə də insanların informasiyaya tələbatının ödənilməsinin əhəmiyyəti araşdırılır. Müəllif diqqəti qlobal dünyada informasiya axınına yönəldərək xəbərlərin yayılmasını, operativliyini və digər mühüm məqamları tədqiq edir. Rəqəmsallaşan dünyada yeni medianın və onlayn xəbərlərin önəmindən bəhs edən Aslan Aslanov bu sahədə uğur qazanmağın yolunu nəzəri biliklərlə yanaşı, praktiki təcrübədə və yeni texnologiyalardan istifadə etməkdə görür, həmçinin təcrübələrini oxucularla, xüsusən gənc jurnalistlərlə bölüşür. Azərbaycanda informasiya sisteminin formalaşması, siyasi və ictimai həyatda xəbər agentliklərinin rolu, müasir xəbərçiliyin aktual problemləri jurnalistika nəzəriyyəsi və müəllifin çoxillik təcrübəsi əsasında araşdırılır. Əminəm ki, kitab universitetlərin jurnalistika fakültələrində dərslik kimi də istifadə olunacaq.

Müasir dünyada oxuculara doğru və operativ informasiya çatdırılmasının əhəmiyyətini vurğulayan professor Zakir Avşar yazır: "Bu ənənə AZƏRTAC-da uzun illərdən bəri davam etməkdədir. Agentlik, xüsusilə Azərbaycanın 44 günlük Vətən müharibəsi dövründə beynəlxalq ictimaiyyəti düzgün məlumatlandıraraq yaxşı nümunə göstərib. Ermənistanın yalanlarına qarşı mübarizə apararaq obyektiv informasiyalarla təkcə Azərbaycan və Türkiyə üçün deyil, dünya ictimaiyyəti üçün də etibarlı xəbərin ünvanına çevrilib".

"Azərbaycanın informasiya agentlikləri" adlı birinci fəsildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra söz və mətbuat azadlığının təmin edilməsi, milli kütləvi informasiya sisteminin formalaşması, dövlətin informasiya siyasətinin əsas istiqamətləri ətraflı təhlil olunur. Müəllif qeyd edir ki, bu siyasətin təməl prinsiplərinin formalaşması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər AZƏRTAC-a daim diqqət və qayğı ilə yanaşırdı. Bu ənənənin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsinin nəticəsidir ki, agentlik müasir texnologiyalarla təmin olunub, beynəlxalq informasiya məkanında mövqelərini möhkəmləndirib. Qarşısında Azərbaycan həqiqətlərini dünyada daha geniş coğrafiyada yaymaq vəzifəsi qoyulan AZƏRTAC hazırda bir çox ölkələrin milli informasiya agentlikləri, habelə mötəbər xarici KİV-lərlə səmərəli əməkdaşlıq edir, qarşılıqlı xəbər mübadiləsi aparır.

"Qloballaşan dünyada informasiya axını, müasir informasiyaların işlənmə və yayılma problemləri", "İnformasiya işində ənənə və müasirlik", "İnformasiya agentliklərinin beynəlxalq və regional təşkilatları" adlı fəsillərdə ənənəvi media ilə sosial şəbəkələr arasındakı fərqli və oxşar cəhətlər, müasir İKT-lərin rolu, AZƏRTAC-ın beynəlxalq media qurumları ilə əməkdaşlığı təhlil olunur. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi ilə Dünya Xəbər Agentliklərinin V Konqresinin və OANA-nın XVI Baş Assambleyasının Azərbaycanda keçirildiyi, 2016-2019-cu illərdə hər iki mötəbər beynəlxalq quruma AZƏRTAC-ın sədrlik etdiyi diqqətə çatdırılır.

Nəşrdə, həmçinin beynəlxalq media təşkilatları barədə ətraflı məlumatlar verilir, agentliyin bu qurumlara üzvlükdən başlayaraq onların rəhbər orqanlarında təmsilçiliyədək keçdiyi yol əksini tapır. Kitab yayım auditoriyası bütün türk dünyasını əhatə edən AYB-nin məşhur "Bengü" yayınları brendi ilə təqdim olunur. Nəşrin baş redaktoru Yaqub Ömərоğlu əsəri informasiyanın formalaşması tarixini və müasir vəziyyətini araşdıran mükəmməl məlumat bazası kimi dəyərləndirib. Onun fikrincə, kitab yaradıcı insanlar, xüsusən mətbuat işçiləri və bu sahənin mütəxəssisləri üçün zəngin məlumat mənbəyidir. "İnformasiya yaradıcılığı: standartlar və yeni yanaşmalar" kitabı rəsmi mənbələrə, arxiv materiallarına, xaricdə və Azərbaycanda nəşr olunmuş elmi-nəzəri tədqiqatlara, dövri mətbuata, internet resurslarına istinadla hazırlanıb.

# Xəzər sülh, dostluq, mehriban qonşuluq və əməkdaşlıq dənizidir



"Xəzər dənizi sülh, dostluq, mehriban qonşuluq və əməkdaşlıq dənizidir. 12 avqust 2018-ci ildə Xəzəryanı ölkələri tərəfindən imzalanmış "Xəzər dənizin hüquqi statusu haqqında" Konvensiya Xəzər dənizdə əməkdaşlığın yeni formatını formalaşdırıb. Konvensiya imzalanana qədər Xəzər dənizinin dibinin işlənməsi ilə əlaqədar ölkələr arasında müəyyən fikir ayrılığı yaranırdısa, artıq bu problem öz həllini tapıb. O cümlədən Xəzərin Azərbaycan-Türkmənistan hissəsində dəniz dibinin ortaq hissəsində neftçilərimiz tərəfindən kəşf edilmiş Böyük karbohidrogen ehtiyatına malik bizim Kəpəz, Türkmənistan tərəfinin Sərdar adlandırdığı yataq istismar olunmurdu. Həmin yataq artıq Dostluq yatağı adlandırılır və bu yatağın birgə işlənməsi ilə əlaqədar 21 yanvar 2021-ci ildə Azərbaycan Hökuməti ilə Türkmənistan Hökuməti arasında Anlaşma Memorandum imzalanıb. Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü Azər Badamov deyib.

Deputat bildirib ki, imzalanmış memorandum ölkələrimiz üçün böyük tarixi əhəmiyyət daşıyır: "Azərbaycan və Türkmənistan eyni soy-kökünə malik, hətta öz dilində danışanda bir-birini başa düşən dost ölkələrdir. Bu birgə memorandum ölkələrimiz arasındakı dostluq münasibətlərinin möhkəmlənməsinin simvolu adlandırardım. Türkmənistan və Azərbaycan beynəlxalq platformalarda bi-birini dəstəkləyən, yeni beynəlxalq nəqliyyat dəhlizlərinin ərsəyə gəlməsində eyni mövqedən çıxış edən ölkələrdir. Xəzər dənizində birgə fəaliyyət formatının formalaşması ölkələrimizin gələcək perspektivində bir-birinə daha da yaxınlaşmasına töhfə verəcəkdir".

A.Babamov vurğulayıb ki, Dostluq yatağı böyük neft-qaz resursuna malikdir: "Azərbaycan Avropaya qədər karbohidrogen resurslarını ixrac etməyinə imkan verən boru xətlərinə malikdir. Bu kəmərlər Dostluq yatağında istehsal olunacaq neft-qazın daşınmasında əsas rol oynayacaqdır. Dostluq yatağının birgə işlənməsi gələcəkdə Xəzər dənizin Türkmənistan sektorunda istehsal olunan neft-qazın Azərbaycanın üzərindən tranzit daşınmasının əhəmiyyətini artıracaqdır. Təbii ki, tranzit daşınmalar ölkəmizin iqtisadiyyatı üçün gələn əlavə gəlirlərdir. O cümlədən Dostluq yatağının işlənməsi Azərbaycan və Türkmənistan Respublikalarının eyni yataqdan mənfəət qazanması deməkdir. Azərbaycan neftçilərin Xəzər dənizdə neft-qaz istehsal etmək təcrübəsi böyükdür. Neftçilərimiz Xəzərin dərin qatlarındakı karbohidrogen resurslarını istismar etməyinə imkan verən texnologiyalara malikdir. Düşnürəm ki, Dostluq yatağının birgə istismarı Xəzərdə Türkmənistanla birgə yeni yataqların istismar edilməsi üçün başlanğıc rolunu oynayacaqdır".

***Aysel Məmmədova***

# Memar Əcəmiyə ucaldılan sənət abidəsi



*Nərminə Ağayeva Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent. "Qızıl qələm" mükafatı laureatı*

***Teatr və dramaturgiya sahəsində bir sıra səhnə uğurları ilə tamaşaçı və oxucu rəğbəti qazanmış, özünəməxsus dramaturq dəsti-xətti, fərdi ədəbi üslubu ilə diqqət çəkən İftixarın, bir sıra digər pyeslərindən sonra yazdığı "Qurtuluş dastanı", "Qurtuluşa gedən yol", "Naxçıvannamə", "Kalbalı xan Kəngərli", "Könüllər mülkünün sultanı - Şeyx Nizami Gəncəvi" pyeslərinin ardınca "Memar Əcəmi" əsərini ərsəyə gətirməsi, məni, müəllifin bu mövzuya müraciətinin haradan qaynaqlanması, bu mövzuya nə üçün könül salması fikri ilə üz-üzə qoydu.***

Bilirik ki, Memar Əcəmi haqqında tarixi mənbələrdə çox az məlumatlar vardır. Ona görə bu mövzunu səhnə əsərində təcəssüm etdirmək çox çətindir. Elə bu səbəbdən də, bu günə qədər Azərbaycanın dahi memarı haqqında böyük həcmli, epoxanı geniş arealda təcəssüm etdirən səhnə əsərinə rast gəlmirik. Bəs İftixarı bu çətinliyə sövq etdirən hansı sevginin təzahürüdür? "Memar Əcəmi" pyesini oxuduqdan sonra, yadıma İftixarın 2015-ci ildə "525-ci qəzet"də çap olunmuş "Unudulmaz Naxçıvan təəssüratlarım" məqaləsi düşdü və mən məqaləni təkrarən bir dəfə də oxudum. O zaman mənə hər şey aydın oldu. "Memar Əcəmi" pyesinin həmin yazı ilə əlaqəsini gördüm. Sanki müasir Naxçıvanın inkişaf konturlarını, çiçəklənmə prosesini, çağdaş dövr Naxçıvanın inkişaf qanunauyğunluqlarını əks etdirən həmin yazı, bu pyesin yaranması üçün təməl təsirini bağışlayırdı.

Belə qənaətə gəlmək olur ki, elə bil İftixar Naxçıvan səfərindəki təəssüratlarından ilhamlanaraq, yaradıcı təxəyyülündə Naxçıvan memarlıq məktəbi haqda öz məfkurəsini formalaşdırıb, nəticə etibarı ilə çox doğru, düzgün istiqamətdə Naxçıvan memarlığının yaranışı ilə müasir görkəmi qovuşuğunda Naxçıvanın müasir Memarının 11-ci əsr Memarı ilə birbaşa bağlılığını ifadə edən tarixi-bədii pyes ərsəyə gətirmişdir. "Unudulmaz Naxçıvan təəssüratlarım" məqaləsində söylənən dəyərli bir cümlə diqqətimi çəkdi; orada İftixar, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbovun söylədiyi "Ədəbi əsərlər, tarixi, tarixi sənədlərdən daha yaxşı yaşada bilir" fikrini diqqətə çatdırır. Bu fikir, doğrudan da, tarix və tarixi şəxsiyyətlərin məhz ədəbi əsərlərdə daha çox əbədiyaşarlıq qazandığını ifadə edən həqiqətdir.

Orta əsr Müsəlman Şərqinin böyük memarı, Naxçıvan və Marağa memarlıq məktəblərinin zirvəsi - Memar Əcəmi Naxçıvani haqqında tarixi qaynaqlarda müəyyən fikirlərə və çağdaş ədəbi müstəvidə az da olsa, bədii əsərlərə rast gəlinir; Hüseyn İbrahimovun "Əsrin onda biri" romanı, Kəmalə Ağayevanın "O bizim dağların oğlu idi" pyesi Əcəmiyə həsr olunmuşdur; şair-dramaturq Nəriman Həsənzadə tarixi xronika janrında yazdığı "Atabəylər" pyesində o dövrün iki böyük sənət fatehinin (Memar Əcəmi, Nizami Gəncəvi) görüş




səhnəsində hər iki dahi sənətkarı ədəbiyyata gətirmiş, onları bədii təcəssümlə bir-birinə qovuşdurmuşdur. Pyes həm Azərbaycan Milli Dram Teatrında, həm də Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur.

Yüksək peşəkarlıqla qələmə alınan ikihissəli mistik, tarixi dram olan"Memar Əcəmi" pyesindəMemar Əcəmi özünün bitkin obrazı ilə daha geniş miqyasda təqdim olunur, öz həqiqi qüdrətinə qovuşur, necə ki, müasir Naxçıvan öz Memarının əməyi ilə özünün obrazını tapa bilmişdir.

Gözlərimiz önündə canlanan müasir Naxçıvanın bu günkü inkişaf mərhələsi, ta qədim zamanlarda, Nuh dövründə yaradılan Naxçıvanla paraleldə özünün bənzər cəhətləri ilə diqqət çəkir. Eyni zamanda, tarixi gerçəkliklərə nəzər saldıqda görürük ki, yeni Naxçıvanla, Azərbaycan Atabəylər Dövləti dövründəki Naxçıvanın yenidən qurma fəlsəfəsi və onun inkişaf mərhələsi adekvatdır. Əsərin süjet xəttindəki hadisələri bu oxşarlıqlar kontestində quran müəllif, nəticədə maraqlı və zəngin kolaritli səhnə əsərinin yaranmasına nail olmuşdur. Ümumiyyətlə deməliyik ki, Əcəminin həyat və yaradıcılığını geniş aspektdə əks etdirən, zəngin hadisələrlə canlandıran, onu böyük miqyasda səhnə əsərində tarixi gerçəkliklərlə ilk dəfə ərsəyə gətirən məhz İftixar Piriyevdir.

Rəngarəng obrazlı, çox planlı, yüksək dinamikalı, oxucuya ruhi pərvəriş təlqin edən, canlı dialoqlarla zəngin, proloq, epiloq və iyirmi səkkiz şəkildən ibarətpyesin personajlar sistemi özünəməxsusluğu ilə seçilir, burada həm tarixi şəxsiyyətlər, həm də müəllif təxəyyülündən qaynaqlanan obrazlar yer alıb. Digər diqqət çəkən məqam İftixarın pyes boyu əsəri tamaşaya hazırlayacaq rejissorlar üçün tövsiyələri - hazır səhnələr, hazır mizanlar qurması, kölgə teatrı elementləri vasitəsi ilə mistik teatral detallarla canlandırılacaq hadisələrin daha dərinqatlarında qəhrəmanlarının paradoksal vəziyyətlərini fəhminin gücü ilə rəsm etməsidir, əlbəttə, bunun da kökündə müəllifin yüksək teatr sənəti bilicisi olması faktı dayanır. Müəllifin təqdim etdiyi remarka və qurduğu kompozisiya ilə hadisələrin inkişaf xəttinə nəzər yetirək.

Mistik təsvirlərlə təqdim olunan Proloqda Gənc Əcəminin, Dəmirçinin yanına gəlib ondan od istəməsi,sonra ovcundakı odu başı üzərinə qaldırması, odu udması və bir an içində sanki nurani qocanın simasının nuru ilə bərabər odun işartılarının Gənc Əcəminin içinə dolması təsvir edilir. İftixar bu epizodda Allahın qüdrəti və "Ol" əmri ilə bir nöqtədən zühur edən iki Ulu-əzim Peyğəmbəri Əcəmi ilə qarşılaşdırır. Allahın Nurunu Nuh Peyğəmbərdən, Allahın Odunu Zərdüşt Peygəmbərdən alan Əcəmi özünü "...mən tufana təslim olmayan nurdan doğulan, odla yoğrulanbəndə" adlandırır. Nədən ki, İnsan Allahdan qopan ilahi cövhərin kiçicik zərrəsidir. Bu kiçik zərrə isə təsəvvüflə kamil bir varlığa çevrilə bilir.

Pyesin birinci hissəsində, Atabəylərin hakimiyyəti dövrünün paytaxtı Naxçıvanda yaşayan Memar Əcəmi, Böyük Atabəy Şəmsəddin Eldənizin dəvəti ilə saraya təşrif buyurur, və o, Şeyxül-mühəndis vəzifəsinə təyin edilir. Şəhərin gözəlləşməsi, yeni görkəm alması məqsədi ilə baş planın hazırlanması işi, daha sonra isə Möminə Xatunun ölümündən sonra onun məqbərəsinin tikintisi tapşırılır. "Tarixdə bizi yalnız o incilər yaşadacaqdır. Biz heç birimiz əbədi deyilik, ancaq sənət əbədidir" - söyləyir hökmdar Şəmsəddin Eldəniz.

Bunların nə qədər məsuliyyətli iş olduğunu dərk edən, hər addımında, hər hərəkətində İlahi varlıqdan güc alan Əcəmi, müəllif tərəfindən yalnız memar kimi deyil, yüksək əxlaqa, parlaq zəkaya, fitri qabiliyyətə malik şəxsiyyət kimi vəsf edilir.

Əcəmi obrazındakı bu fövqəlqabiliyyətləri İftixar məqsədyönlü şəkildə mistika vasitəsi ilə təqdim edir. Əcəmi öz sadəliyi ilə əzəmət və qüdrətini nümayiş etdirir. Onun öz işinə məsuliyyəti Nuh Peyğəmbərə xəyali müraciətində xüsusi həssaslıqla rəsm edilib: "Nuh dədəm, hökmdarımızın istədiyi mürəkkəb sistemli gizli keçidlərin hasil olması məni əndişələndirir" - söyləyir. Nuh Peygəmbər isə Əcəmiyə çarpaz sistemdən istifadə edərək mürəkkəb düzərgah qurmağın yolunu izah edir. Bu dialoqda Allahın Əcəmiyə bəxş etdiyi fəhmin qüdrəti və onun tək-tək bəndələrə nəsib olması, eyni zamanda Nuh Peyğəmbərin özünün də qüdrət sahibi olaraq həndəsə elmi vasitəsi ilə, ilk yaradıcı kimi, Gəmi yaradaraq insanları tufandan xilas etməsi fəhminə işarət edilir.

Əgər əsər mistik olmasaydı, oradakı hadisələri, səhnələri həll etmək mümkün olmazdı, çünki pyesdə baş verənlər tarixdən götürülmüş olsalar belə, əsas dramatizm müəllif təxəyyülünün məhsuludur.

Pyesi oxuduqda məndə elə təəssürat yaranırdı ki, sanki İftixar doqquz əsr geriyə dönərək, Əcəmi mühitinə səfər etmiş, hadisələrin canlı şahidi olaraq bütün olmuşları həssas tərzdə, dəqiq konturlarla yazıya köçürmüşdür. Memar Əcəmi, Şəmsəddin Eldəniz, Möminə xatun, Fulana xatun, Afitab, Cahan Pəhləvan, Arslan şah, Qızıl Arslan, Nuh Peyğəmbər, Zərdüşt Peyğəmbər, Şeyx Nizami Gəncəvi, Ərçinar və digər obrazların dialoqlarını, sultanlıqda baş verən hadisələri yazmaq müəllif təfəkküründən, gələn istedad, peşəkarlıq tələb edir və heç şübhəsiz ki, İftixar, belə çətin işin öhdəsindən mistik detallar, vasitələr və keçidlərlə gələ bilir. Böyük Atabəy Şəmsəddin Eldənizin xanımı, məsləkdaşı, ümumiləşdirilmiş Azərbaycan qadınını, Azərbaycan anasını simvolizə edən nəcabət, sədaqət, iman rəmzi olan Möminə Xatun obrazı isə müəllif tərəfindən xüsusi sevgi ilə yaradılmışdır.

İftixar əsərdə müəllif ideyasının mahiyyətinə uyğun mistik detalların, vasitələrin fonunda keçidlər aşaraq, Əcəmini Allah dərgahında İlahi vəhdətin - vəhdət əl-vücudun idrak rəmzi olaraq rəsm edir. Əcəminin bütün varlığı ilə Allaha imanı, namaz üstə etdiyi dualarda vətəninə, torpağına bağlılığı, çətin məqamlarda Zərdüşt Peyğəmbərin ona bəxş etdiyi müqəddəs "Od"un köməyi ilə şər qüvvələrdən qurtulması və xeyirlə şərin mübarizəsindən qələbə ilə çıxması mistik boyalarla canlandırılır. Müəllif Əcəmini qüdrət və qüvvət sahibi - Yaradana tükənməz sevgi, həyat, insanlıq, məhəbbət, bəşəri duyğular və fəlsəfi düşüncələr ovqtına gətirərək, müxtəlif psixoloji hadisələrin çevrəsində oxucu ilə görüşdürür və bu səhnələrdə Əcəmi öz kamal zirvəsinə, müdriklik mərtəbəsinə yetişir.

Sanki müəllif baş verən hadisələrin içərisinə vararaq, hər obrazı öz dili ilə danışdırır. Böyük tarixi hadisələrin, baş verən əzəmətli dönüşlərin təsvir arealı bədii təxəyyülün işığı ilə nümayiş olunur. Pyesdə söz sənətinin qüdrət zirvəsi Nizami Gəncəvi dünyası da obraz olaraq incə məqamlarla Əcəmi dünyası ilə qovuşur. İftixar Əcəminin qızı Afitabın dili ilə Şeyx Nizami Gəncəvinin "Sirlər xəzinəsi" adlıbir incisinin hökmdar sarayına gətirilməsini xüsusi vurğulayır. Bu xəbəri eşidən Əcəmi Nizami haqqında: "Həyatımda ən çox görmək eşqində olduğum insan... Nizaminin inciləri ələ düşmür. Nizami bütün zamanələrin şairlərinin fövqündə bərqərar olan söz fatehidir" söyləyir. O dövr tədqiqatçılarının qənaətinə görə, belə məntiq hasil olur ki, Əcəminin yaratdığı abidələrin nəzəri mahiyyətində Nizami fəlsəfəsinin fövqəladə təsiri olmuşdur.

İftixar əsərin epiloqunda Əcəmi sənətindəki hikməti və nəhəngliyin səbəbini Nizaminin dili ilə Əcəminin sadəliyinin qüdrətində görür: "Cahanın dörd tərəfində adın şərəflə çəkilir, əsərlərin öz füsünkarlığı, cazibəsi, sənət ecazı ilə dillərdə dastandır. Sən bunu sadəcə, öz sadə bacarığın kimi qəbul edirsən. Əslində isə sən dahisən! Bunu göylər də isbat edər!" söyləyir.

Əcəminin Tanrıdan güc alan fəhm və fərasətinin sənətkar ecazı və Allah eşqi ilə daşlarda yaratdığı füsunkar möcüzə və "insanlığın təntənəsi" adlandırılan "Möminə xatun məqbərəsi" və digər memarlıq incilərinin inşasından sonra Azərbaycanın şöhrəti, Naxçıvanın səs-sədası bir sıra ölkələrə yayılır və hər kəs bu abidələri görmək üçün Naxçıvana səyahət edir. Əcəmi Naxçıvaninin dövrümüzə çatmış ən gözəl əsəri olan "Möminə Xatun məqbərəsi" bu gün də Naxçıvan şəhər mədəniyyəti tarixinin əzəmətini əks etdirir və Naxçıvanın müasir memarlığına əsrlərin yaddaşından süzülən mənəvi güc, qüdrət və qüvvət təlqin edir.

Mən İftixarın "Memar Əcəmi" pyesindəki o dövrə aid torpaqlarımız uğrunda aparılan qəhrəmanlıq hadisələri ilə, Azərbaycanın Vətən müharibəsi uğrunda vuruşaraq zəfər qazanması arasında müəyyən bağlılıqlar duydum. O dövrün müharibələrində qazanılan qələbələrlə, Qarabağ müharibəsində əsgərlərimizin qazandığı zəfər, müzəffər ordumuzun əldə etdiyi qələbə bənzərliyi pyesdə aydın şəkildə görünür. Naxçıvanın xüsusi təyinatlılarının da daxil olduğu ordumuzun göstərdiyi şücaət sayəsində əldə olunan zəfər Azərbaycanın dünya hərb tarixində misilsiz qəhrəmanlıq səhifəsi kimi əbədi yaşayacaq. Müəllifin söylədiyi kimi, "Tarix sənətin əbədiyyətində daha canlıdır".

Ümidvarıq ki, İftixarın "Memar Əcəmi" mistik tarixi dramı Azərbaycan teatr səhnəsində öz mötəbər zirvəsini tapacaqdır.

# 2021-ci ildə Ermənistan daha da dəhşətli günlər yaşayacaq



***İkinci Qarabağ müharibəsindəki məğlubiyyətindən sonra Ermənistanda bütün sahələrdə vəziyyət görünməmiş dərəcədə ağırlaşıb. Nəticədə bu ölkədə yoxsulluq pik həddə çatıb, üstəlik, pul vahidi dramın devalvasiyası da başlayıb. Erməni mənbələri bildirirlər ki, ötən il ölkədə 23 minə yaxın müəssisə fəaliyyətini dayandırıb. Bu da 2019-cu illə müqayisədə əlli faizdən çoxdur. Bütün bunlara görə hazırda ermənilər Ermənistanı tərk etməklə başqa ölkələrdə xoşbəxt həyat tapmaq arzusundadırlar.***

Bu səbəbdən onlar koronavirus pandemiyasının başa çatmasını, sərhədlərin açılmasını səbirsizliklə gözləyirlər. Amma hakimiyyət bunun da qarşısını almağa çalışır. Dünyada may ayında koronavirus təhlükəsinin azalacağı gözlənilsə də, Ermənistanda cari ilin iyulun 11-dək karantin rejiminin davam etdirilməsi barədə qərar qəbul olunub.

Şübhəsiz, belə bir qərarın qəbulu həm də ölkədəki kütləvi etiraz aksiyalarının qarşısını almağa hesablanıb. Hazırda döyüşlərdə Azərbaycan Ordusu tərəfindən məhv edilmiş hərbçilərlə bağlı onların ailələrinə doğru məlumatların verilməməsi vəziyyəti daha da kəskinləşdirib. Yeri gəlmişkən qeyd edək ki, 44 günlük müharibədə Ermənistan 5 mindən çox hərbçisini itirib. Müharibə işğalçı ölkəyə ən azı 40 milyard dollar ziyan vurub. Olduqca çətin duruma düşən ölkə rəhbərliyi vəziyyətdən çıxış yolunu həbslər aparmaqda, kadr dəyişiklikləri həyata keçirməkdə görür. Ermənistanın Rusiyadakı sabiq səfiri Suren Saakyanın ölkənin müdafiə naziri təyin olunmasını, konstitusiya quruluşunu devirməkdə günahlandırılan Ermənistanın eks-prezidenti Robert Koçaryanın məhkəməsinin 4 aylıq fasilədən sonra yenidən başlamasını, həmçinin İrəvanda keçirilən etiraz aksiyası zamanı "Nikol xaindir" şüarını səsləndirdiyinə görə müxalif "Vətən" partiyasının funksioneri David Bağdasaryanın saxlanılaraq polis şöbəsinə aparılmasını buna misal göstərmək olar.

Bütün bunlarla kifayətlənməyən baş nazir Nikol Paşinyan yenə də yalan vədlər verməklə ictimaiyyətin qəzəbindən sığortalanmağa çalışır. Məsələn, Ermənistan hökumətinin son iclasında çıxış edən Nikol Paşinyan ölkəsinin bir çox iqtisadi problemlərlə üzləşdiyini bildirməklə yanaşı, hələ də əlverişli imkanların mövcudluğunu vurğulayb. Üstəlik, o, bu ilin Ermənistanın iqtisadi inkişafının bərpası, dirçəlişi ili olacağını bildirib. Amma görünən odur ki, bu istiqamətdə heç bir tədbirin həyata keçirilməsinə başlanılmayıb. Yəni ortada hələ ki, heç nə yoxdur. Erməni müxalifətinin, o cümlədən sabiq baş nazir Vazgen Manukyanın fikrincə, bütün bunlar əhalinin başının altına yastıq qoymaqdan başqa bir şey deyi. O, həmçinin 2021-ci ildə Ermənistanın daha dəhşətli günlər yaşayacağını, ölkədə siyasi çaxnaşmaların baş alıb gedəcəyini söyləyib.

"Past" qəzeti yazır ki, bugünlərdə Ermənistanın baş prokuroru Artur Davtyan ölkəni pis duruma sürükləyən Nikol Paşinyana qarşı Cinayət Məcəlləsinin dövlətə xəyanət maddəsi ilə cinayət işinin başlanması üçün yetərincə əsaslar olduğunu bildirib. Bütün bunların fonunda Nikol Paşinyan öz postunu qoruyub saxlamaqda, hakimiyyətini möhkəmləntməkdə davam edir. Namizədlikləri "Mənim addımım" parlament fraksiyası tərəfindən irəli sürülmüş Qaqik Cangiryan və Armen Xaçaturyanın Ali Məhkəmə Şurasına üzv seçilmələri də bunu sübut edir. Hakimiyyət bununla da məhkəmə sistemini öz nəzarəti altına almaq istəyir. Çünki Nikol Paşinyan yaxşı dərk edir ki, əgər istefaya gedərsə ya həbs ediləcək, ya da ömürlük ölkəni tərk etmək məcburiyyətində qalacaq.

Siyasətçilərin fikrincə, hazırda Ermənistanda xalqın dərdlərinə əlac edə biləcək, daha doğrusu, cəmiyyət tərəfindən qəbul olunan lider yoxdur. Doğrudur, müxalifət baş nazir postuna vahid namizəd kimi Nikol Paşinyan rejimini tənqid edən Vazgen Manukyanı göstərir. Amma fakt budur ki, hazırda hakimiyyət uğrunda baş nazirin müavini Tiqran Avinyanla spiker Ararat Mirzoyan arasında da mübarizə gedir.

Bir sözlə, Vətən müharibəsindəki qələbəmiz Ermənistan cəmiyyətində məyusluğa və parçalanmaya, iqtisadiyyatında isə tənəzzülə səbəb olub. Elə bu səbəbdən Ermənistanda daxili siyasi-iqtisadi vəziyyət daha da mürəkkəbləşməyə doğru gedir.

***Qvami Məhəbbətoğlu***



## "Hraparak" qəzeti: "Müxalifət Rusiyanın səfirindən razı deyil"

Ermənistanda dərc edilən "Hraparak" qəzeti "Müxalifət Rusiyanın səfirindən razı deyil" sərlövhəli yazı ilə çıxış edib. SİA xəbər verir ki, bu barədə Sputnik-Armeniya yazır və qeyd edir ki, həmin yazıya görə Rusiyanın Ermənistandakı səfirliyi adıçəkilən erməni qəzetində yayılan informasiyaya görə sübut tələb edib.

"Məqalə Rusiyanın Ermənistandakı Fövqəladə və Səlahiyyətli Səfirinin ünvanına böhtan xarakterində yönəlib. Əlinizdə məqalədəki informasiya ilə bağlı inandırıcı sübutlar varsa, xahiş edirik onları təqdim edəsiniz. Əks halda təkzib verməyinizi tələb edirik", deyə səfirliyin rəsmi "Facebook" səhifəsində yazılıb. O da qeyd edilir ki, "Hraparak" qəzeti səfirliyə nəşri maraqlandıran bir sıra suallara cavablar istəməsi ilə bağlı müraciət edib. Lakin qəzet hər hansı bir sübut edə bilməsə, bundan sonra əməkdaşlıqdan söhbət gedə bilməz.

Xatırladaq ki, "Hraparak" qəzetinin 21 yanvar buraxılışında erməni müxalif güclərin Rusiyanın Ermənistandakı səfirindən narazı olduqlarını yazıb və eyni zamanda qeyd edib ki, səfir bəzi siyasi qüvvələrə sponsorluq göstərir, həmçinin hakimiyyətin növbədənkənar seçkilər keçirməsi ilə bağlı sövdələşmələr aparır. Məqalədəki informasiyada erməni müxalifətinin Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkinin geri çağırılmasına nail olmaq məqsədləri də yer alıb.

***Rövşən RƏSULOV***

## AXP-AMDP arasında dava-dalaş



### Nemət Pənahlı: "Pənah Hüseynin qolunu qırmışam"

Azərbaycan Xalq Partiyasının (AXP) sədri Pənah Hüseynlə Azərbaycan Milli Dövlətçilik Partiyasının (AMDP) sədri Nemət Pənahlı arasında qalmaqal baş verib. SİA xəbər verir ki, buna səbəb hər iki müxalifət partiyası liderlərinin debat keçirdikləri zaman bir-birlərinə "agent" ittihamı səsləndirmələridir. Daha dəqiq desək, N.Pənahlı P.Hüseyni və digərlərini "KQB" agent"i adlandırıb, azadlıq hərəkatı zamanı milli maraqları satmaqda günahlandırıb və qeyd edib ki, belə məsələlərə görə bir neçə dəfə aralarında qarşıdurmalar yaşanıb.

"Pənah Hüseyn baş nazir vəzifəsində çalışanda və digər vaxtlarda da üstümə gəldi, bacarmadı", deyən AMDP sədri zamanında ona ağır xəsarət yetirdiyini də gizlətməyib. "Hətta bir dəfə hücum etdi, onda da qolu qırıldı, 6 ay sarıqlı gəzdi", N.Pənahlı bildirib.

### Pənah Hüseyn: "Nemət Pənahlının başına yumruq vurdum girdi stolun altına"

AXP sədrinin N.Pənahlıya cavabı gecikməyib. Belə ki, o da vaxtilə N.Pənahlını necə "döydüyünü" bildirib və qeyd edib ki, onun başına yumruq zərbələri endirib. Hətta əlində həmin anın təsvirlərini sübut edən fotoların da olduğunu deyən P.Hüseyn, "Başına yumruq vurdum, girdi stolun altına. Şəkilləri də təqdim edə bilərəm...", deyə cavab verib.

Xatırladaq ki, artıq 30 ildən çoxdur ki, milli azadlıq hərəkatı dövründə müxtəlif qruplarda təmsil edilən və hazırda da siyasi arenada müxalifət cinahında yer alan bir çox şəxslər həmin dövrlərdəki fəaliyyətlərini, baş verənləri təhlil edərkən, bir-birlərinə "satqın", "agent" kimi ittihamlar irəli sürürlər və nəticədə sözügedən halların yaşanması da ilk dəfədir ki, baş vermir.

***Rövşən RƏSULOV***

# Ermənistanda daxili gərginlik dərinləşir

***Ermənistanda müharibədən sonrakı böhran daha da dərinləşir. Getdikcə ölkədə siyasi qüvvələr arasında ziddiyyətlər artır, vətəndaşların narazılıqları böyüyür, sosial-iqtisadi vəziyyət daha da pisləşir. Bunu Trend-ə Milli Məclisin deputatı Kamran Bayramov deyib.***



Deputat bildirib ki, sentyabrın 27-dən erməni təxribatları ilə başlayan döyüşlərdən əvvəl də Ermənistandakı daxili siyasi və sosial-iqtisadi vəziyyət böhran içərisində idi: "Elə Paşinyan hakimiyyətinin təxribatlara əl atmasının da səbəblərindən biri o idi ki, əhalinin diqqətini mövcud olan sosial-iqtisadi problemlərdən yayındırsın. Əlbəttə, müharibə nəticəsində Ermənistanda bu sosial-iqtisadi durum daha da ağırlaşıb, dərinləşib və hazırda ciddi siyasi böhrana çevrilib. Sentyabrın 27-dən - döyüşlər başlayandan sonra onsuz da zəif büdcəsi olan Ermənistan iqtisadiyyatına çox ciddi zərbə vuruldu.

Ermənistan 44 günlük müharibədə biabırçı məğlubiyyətdən sonra uzun illər özünə gələ bilməyəcək. Həm sosial-iqtisadi, həm mənəvi-psixoloji, həm də insan amili baxımından Ermənistana böyük zərbə dəyib.

Bu ölkədə sosial-iqtisadi vəziyyət onsuz da acınacaqlı idi, ölkə xaricdən gələn ianələr hesabına çətinliklə yaşayırdı. Digər tərəfdən, uzun illər idi ki, yalanlar sayəsində Ermənistan cəmiyyətində bir arxayınlıq yaranmışdı, ermənilər özlərini qalib xalq hesab edirdilər, düşünürdülər ki, daim Azərbaycan torpaqlarını işğal altında saxlayacaqlar. Lakin 44 günlük müharibə bütün bunların sadəcə bir mifologiya, çürük qoz oluğunu üzə çıxardı. Ermənilər əslində illərdir yalanlarla yaşadıqlarını, uçuruma getdiklərini anladılar. Müharibə həm də Ermənistan üçün böyük sayda insan itkisi ilə nəticələndi.

Bütün bu hadisələr Ermənistan cəmiyyətində, siyasi kəsimində ciddi mənəvi-psixoloji sarsıntıya səbəb oldu, bu qədər itkilər vermələrinə rəğmən müharibənin acı məğlubiyyətlə bitməsi onlar üçün tarixin ən ağır zərbəsi oldu. Artıq ermənilər Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu deyirlər, erməni valideyinləri müdafiə nazirliyinin qarşısına toplaşaraq övladlarının Qarabağa göndərilməsinə etiraz edirlər. Bütün bunları sosial şəbəkələrdə və digər internet resurslarında yayılan videolardan görmək mümkündür".

K.Bayramov qeyd edib ki, bu itkilərə görə günahkar Ermənistanın cinayətkar və işğalçı rəhbərləridir: "Göründüyü kimi, Ermənistanda ciddi siyasi

# Qarabağ: Sosial-iqtisadi inkişaf pespektivləri nə vəd edir?

*"Torpağı əkib becərməsən, qorumağa dəyməz, torpağı qorumursansa, əkib becərməyə dəyməz"*




*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Qarabağın azad olunması ölkəmiz üçün çox böyük tarixi nailiyyət olmaqla yanaşı, həm də böyük fayda verəcək bir hadisədir. Azərbaycanın 20 faizini təşkil edən bu 12 rayon ölkənin ən üstün potensiallı əraziləri hesab olunur. Erməni işğalından və istismarından xilas edilən yerüstü və yeraltı təbii sərvətlər ölkəmizə çox böyük iqtisadi fayda gətirəcək. Buradan əldə edilən gəlirlər ilk növbədə Qarabağın bərpası və yenidənqurması üçün, daha sonra isə ölkəmizin inkişafına böyük töhfə verəcək.***



**Qarabağ sərvətlərinin talanmasına son qoyuldu**

Hələ müharibə yeni bitdiyi günlərdə Ermənistanın keçmiş baş naziri Hrant Baqratyan işğal altındakı Azərbaycan torpaqlarında yağmalama ilə məşğul olduqlarını etiraf etmişdi. O bildirmişdi ki, müharibəyə qədər Qarabağda təxminən 100 min ton buğda yığılırdı, bir neçə su elektrik stansiyası işləyirdi. İndi isə həm taxıl sahələri, həm də su elektrik stansiyaları Azərbaycanın nəzarətinə keçib.

Bu açıqlama Ermənistanın illərdir Azərbaycan ərazilərindəki zənginlikləri talamasının daha bir sübutudur. Baqratyan hələ onu deməyib ki, Ermənistan Kəlbəcərin və Zəngilanın yeraltı sərvətlərindən milyonlarla və bəlkə də milyardlarla dollar əldə edib.

Ümumiyyətlə, Ermənistanın işğalı altında olmuş Azərbaycan ərazilərində yerüstü və yeraltı təbii sərvətlərimizi talan etməsinə dair çoxsaylı faktlar və bu cür etiraflar var. Azərbaycan Ordusunun Qarabağı işğaldan və terrorçulardan azad etməsi nəticəsində bu cinayətə və talançılığa son qoyuldu.

Bəzi qanunsuz talanlarla bağlı Azərbaycan prokurorluğunda cinayət işləri açılıb. Dəfələrlə beynəlxalq təşkilatlara müraciət edilib. Lakin indiyədək heç bir reaksiya verilməyib. İşğaldan azad olunmuş Azərbaycan torpaqlarında 160 müxtəlif qiymətli metal yatağı var idi və 30 il ərzində Ermənistan bunları istismar edib. Bölgədə qızıl, gümüş, civə, mis, qurğuşun, daş kömür, rəngli, dekorativ daşlar və digər yataqları mövcuddur.

İndiyədək Ermənistanın ixracında mühüm yer tutan dağ-mədən məhsulları sırasında qızıl, mis, sink filizləri və konsentratlarının, həmçinin qiymətli metalların xeyli hissəsi Azərbaycanın işğal olunmuş ərazilərindəki Söyüdlü (Zod), Qızılbulaq, Vejnəli qızıl, Mehmana polimetal və Dəmirli mis-porfir yataqlarından hasil olunurdu.

Bundan əlavə, meşələrin qırılaraq satılması, su mənbələrinin vəhşicəsinə istismarı, həmin ərazilərdə narkotika plantasiyaları salınması kimi cinayət işləri də beynəlxalq məhkəmədə qaldırılmalıdır. Aran Qarabağda böyük taxıl əkinləri var idi ki, bu taxıl Ermənistana daşınırdı. İndi bu mümkün olmayacaq.

**Ermənistan 300 milyardlıq təzminat iddiası qarşısında**

Prezidentin tapşırığına əsasən vətəndaşların mülkiyyəti, infrastruktur, mədəniyyət abidələri ilə yanaşı, həm də Azərbaycana məxsus təbii resursların qeyri-qanuni istismarı haqqında materiallar əsasında Ermənistanın Azərbaycana vurduğu zərərlər qiymətləndiriləcək Bəzi məlumatlara görə, söhbət ən azı 300 milyard dollarlıq təzminat tələbindən gedir. Belə ki, təxmini hesablamalara görə, həmin ərazilərin işğal altında olması nəticəsində ölkəmizə dəyən zərər 200 milyard dollara bərabərdir.

30 ildə əldə edə biləcəyimiz gəlirlər də nəzərə alınarsa, bu zərər 300 milyard dollara yaxın olar. Biz bu qədər vəsaitlə dünyanın iqtisadi cəhətdən daha inkişaf etmiş ölkələrindən biri ola bilərdik. Bundan başqa Qarabağ münaqişəsinin həllinə yönələn siyasi diplomatik məsələlərə, hərbi gücümüzün artırılmasına yönələn xərclərə də 10 milyard dollarlarla vəsait xərclənib.

Bundan başqa, bu prosesdə iştirak edən xarici şirkətlərin və vətəndaşların da məsuliyyətə cəlb olunması ilə bağlı bütün lazımi tədbirlər görüləcək. Yaxın günlərdə azadetmə əməliyyatı başa çatacaq və bütün torpaqlarımızın yerüstü sərvətləri kimi, yeraltı sərvətləri də öz həqiqi sahibinə - Azərbaycan xalqına və dövlətinə qayıdacaq.

Qarabağ ən güclü iqtisadi zonalarımızdan birinə çevriləcək

İşğal altında olan ərazilərimizdə iqtisadi inkişaf təmin ediləcəyi təqdirdə Qarabağ regionu ölkəyə verdiyi faydaya görə regionlarımız arasında 2-ci mövqeyə sahib olacaq. Həmin ərazilərimizin həm iqlim, həm təbii sərvətlər, həm torpaq fondu cəhətdən Azərbaycanın ən yaxşı bölgəsi sayılır. Ərazinin çox böyük aqrar, turizm potensialı var. Sovet dövründə burada yüngül sənaye, turizm, tərəvəzçilik, üzümçülük, taxılçılıq inkişaf etmişdi. Heyvandalıq üçün də böyük potensial var.

Bundan başqa Qarabağda dərman sənayesi üçün lazım olan faydalı bitkilər yetişir. Bunun sayəsində orda dərman fabriki açmaq və təbii yolla alınan dərmanlar istehsal etmək olar.

Bu ərazilər ölkənin qeyri-neft sektorunda böyük paya malik olacaq. Ərazidə böyük həcmli faydalı qazıntı imkanları var. Qısa bir müddətdə- 1-2 il müddətində ərazilərə investisiyalar yönəltməklə sosial-iqtisadi infrastruktur qura bilərik.

Həm yerli, həm də xarici investorlar cəlb etmək olar. Oradakı yaşayış məntəqələrini bərpa etmək üçün 70-80 faiz bərpa işləri aparılmalıdır. Bunun üçün böyük bir maliyyə lazımdır. Əlbəttə, bunun üçün dövlətin müvafiq ehtiyatları var.

Bizim 50 milyard dollarlıq strateji ehtiyatlarımız var, digər çoxsaylı fondlarımız var, bundan əlavə yerli investorlarımızın böyük imkanları var, xaricdə yaşayan azərbaycanlıların investisiya qoyması üçün dövlət stimullaşdırıcı tədbirlər görəcək, güzəştlər tətbiq olunacaq. Ermənilər qeyri-qanuni olaraq, xarici şirkətlərlə- Fransa, ABŞ şirkətləri ilə müqavilə bağlayaraq Kəlbəcərdəki qızıl məntəqələrində işləyir və böyük gəlirlər əldə edirdilər. Bu mədənlər də böyük fayda deməkdir və Qarabağın bərpasında həmin mədənlərin böyük rolu olacaq.

**Qarabağın məskunlaşdırılması nə vəd edir?**

1 milyon nəfər məcburi köçkünün həmin ərazilərə- öz yurd-yuvasına qaytarılması da ölkəyə iqtisadi fayda gətirəcək. Həmin əhalinin ərazilərə köçürülməsi həm də digər ərazilərdəki sıxlığı azaldacaq. Ölkənin əhalisi tarazlı paylaşmış olacaq və ən münbit regionlarda yaşaması təmin ediləcək.

Qarabağda tikinti-quruculuq işlərinin aparılması məşğulluq imkanlarını da artıracaq. Aydındır ki, hökumətin Qarabağda sosial-iqtisadi infrastrukturu bərpa etməklə bağlı xüsusi hesablanmış, aydın proqramı var. Maksimum 2-3 il müddətində Qarabağda həm sosial-iqtisadi inkişaf, həm abadlıq baxımından çox böyük dəyişikliklər olacaq, bu region dövlət büdcəsinin gəlirləri, ÜDM-də olan faizinə görə 2-ci yerə malik ola biləcək. Beləliklə, erməni işğalından və istismarından xilas edilən yerüstü və yeraltı təbii sərvətlər ölkəmizə çox böyük iqtisadi fayda gətirəcək.

Ermənistanın isə gəlirləri xeyli azalmış olacaq. Onsuz da iqtisadiyyatı dağılmış, defolt həddinə gəlmiş ölkə üçün bu, daha bir sarsıdıcı zərbədir. Ermənilərin yaşamasına icazə verilən ərazilərimizdə siyasi olduğu kimi, iqtisadi hakimiyyət də Azərbaycana məxsus olacaq.

Ermənistanla bu bölgənin heç bir iqtisadi bağlılığı ola bilməz. Yalnız burada yaşayan ermənilərə sosial yardımlar mümkündür. Ermənistana gedib-gələn ermənilər özləri ilə bir neçə şey aparıb gətirə biləcək. Bu da nəzarət altında olacaq. Kommunikasiyaların açılmasından ən çox qazanan isə yenə də Azərbaycandır. Həm ölkəmizin 2 ayrı hissədə olan əraziləri birləşmiş olur, həm də Türkiyə və Avropaya alternativ birbaşa yol əldə olunur.

Göründüyü kimi, Qarabağın azad olunması Azərbaycan üçün yeni iqtisadi gəlirlər və siyasi nüfuz, Ermənistan üçün isə böhran və çöküş gətirir.

***Elçin Bayramlı***

ANALİZ

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

Son səhifə

23 yanvar

# Messini bağışlamadılar



*İspaniya Futbol Federasiyası "Barselona"nın hücumçusu Lionel Messi ilə bağlı verdiyi apellyasiya şikayətinə baxıb. Qol.az AS nəşrinə istinadən xəbər verir ki, federasiya argentinalı futbolçunun cəzası ilə bağlı şikayəti rədd edib. Onun cəzası qüvvədə qalıb.*

**Xatırladaq ki, Messi İspaniya superkubokunun finalında "Atletik"in oyunçusu Asyer Vilyalibreni vurub. Qarşılaşmanın bitməsinə bir dəqiqə qalmış Messi qırmızı vərəqə alaraq meydandan qovulub. Hücumçu iki oyunluq cəzalandırılıb.**

# "Qalatasaray" "Torino"nun hücumçusunu aldı



**Transfer çalışmalarını sürətləndirən "Qalatasaray" hücum xəttini daha bir futbolçu ilə gücləndirib. Apasport.az-ın məlumatında deyilir ki, Halil Dərvişoğludan sonra "cim-bom" "Torino"nun forvardı Simone Zaza ilə anlaşıb. Klublar arasında danışıqların artıq müsbət yekunlaşdığı və Zazanın mövsümün ikinci yarısını icarə əsasında İstanbul klubunda keçirəcəyi bildirilib. "Bolonya"nın təklifini qəbul etməyən 30 yaşlı forvard özü də "cim-bom"la şəxsi müqaviləni razılaşdırıb.**

**Qeyd edək ki, Radamel Falkao ilə yollarını ayırmağı planlaşdıran "Qalatasaray" "Başakşəhər"dən İrfan Canı, "Monako"dan isə Henri Onyekurunu heyətinə qatmağa yaxındır.**



# Baş həkim: Yanvarın axırlarında tibb işçilərinin peyvəndlənməsi başa çatacaq

Həftənin əvvəlindən başlanılan vaksinasiya tədbiri getdikcə daha böyük sürətlə davam edir. Təkcə ötən gün poliklinikamızda 52 nəfər vaksinasiya olunub. Bu gün də artıq xeyli tibb işçisinə peyvənd vurulub, gözləmə otağında olanlar da var. Bu barədə AZƏRTAC-a Səbail rayonu 2 nömrəli şəhər poliklinikasının baş həkimi Sevda Aslanova məlumat verib. Onun dediyinə görə, vaksin vurulan şəxslərin vəziyyəti tam normaldır. Baş həkim prosesin gedişinin nəzarət altında olduğunu bildirərək əlavə edib: "İndiyədək 80 nəfərdən artıq tibb işçisinə peyvənd vurulub. Bu, işçilərin yarıdan çoxu deməkdir. Yanvarın axırlarında tibb işçilərinin peyvəndlənməsini başa çatdırıb həssas qrupdan olanların prosesə cəlb olunmasını nəzərdə tutmuşuq".

## Nardaran sakinindən silah-sursat götürülüb



Polis əməkdaşları qanunsuz saxlanılan silah-sursatın aşkarlanması istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sabunçu Rayon Polis İdarəsinin 42-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Nardaran qəsəbə sakini, əvvəllər məhkum olunmuş C.Yusifovun evinə baxış zamanı oradan "TT" markalı tapança, bir patron darağı və dörd patron aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırmalar aparılır.



# Xaricdən sifariş edilən bağlamalar niyə gecikir?

Vətəndaşların xaricdən sifariş etdikləri poçt bağlamalarının uzun müddət gecikdirilməsi, daşıyıcı şirkətlərin öz işini düzgün qurmaması səbəbindən baş verir. Dövlət Gömrük Komitəsindən (DGK) verilən məlumata görə, daşıyıcı şirkətlər tərəfindən ölkə ərazisinə gətirilən mal partiyasına gömrük nəzarəti tədbirləri, mallar gömrük orqanına təqdim edildiyi andan maksimum 2-3 gün ərzində həyata keçirilir.

"Bəzən daşıyıcı şirkətlər qanunvericilikdə müəyyən edilən dəyər həddini aşan bağlamaların barəsində gömrük nəzarəti başa çatan yük partiyalarından ayırıb gömrüyə təqdim edilməsi prosesinə günlərlə vaxt sərf edir. Nəticədə praktiki iş prosesini düzgün qurmayan həmin şirkətlər vətəndaşlara məxsus bağlamaları gecikdirir", - Komitədən bildirilib.

Həmçinin bir sıra hallarda daşıyıcı şirkətlər biznes prosesdə ləngiməklə yanaşı, kütləvi endirimlər dövründə yük həcmini qəbul etməkdə çətinlik çəkir və malları gömrükdən çıxarsalar da öz anbarlarında anbarlaşdıra bilmir. Bəzən isə terminalla və ya daşıyıcı aviaşirkətlərlə yaranan problemlərlə əlaqədar mal partiyasını anbardan çıxara bilməyən şirkətlər malın hərəkət statusunu "gömrükdə" olaraq göstərir. Aparılan araşdırmalar göstərir ki, əksər hallarda bu daşıyıcı şirkətlərin böyük həcmdə yükləri idarə edə bilmədiklərindən də baş verir.

Bəzi poçt bağlamalarının əsassız olaraq saxlanılması ilə bağlı məsələyə gəldikdə isə Komitədən qeyd edilib ki, fiziki şəxslər tərəfindən təyinatı istehsal yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan poçt göndərişləri yalnız qanunvericilikdə müəyyən edilən gömrük dəyəri həddini aşdıqda, aidiyyəti dövlət orqanlarının rəy və icazələri tələb olunduqda və ya qanunvericilikdə nəzərdə tutulan digər hallarda saxlanıla bilər.

"Bəzi hallarda vətəndaşlar təqvim ayı üzrə sifarişlərini yalnız məhsulların öz dəyərini hesablamaqla planlaşdırır və daşıma xərcini əlavə etmədiklərindən qanunvericilikdə müəyyən edilən gömrük dəyəri həddini aşır ki, bu bağlamaların saxlanılması ilə nəticələnir", - deyə Komitədən bildirilib. Gömrük dəyəri, Gömrük tarifi haqqında qanunun 2-ci fəslinə uyğun olaraq müəyyən edilir və gömrük dəyərinin müəyyən edilməsi zamanı məhsulun dəyəri ilə yanaşı, daşınma xərci də nəzərə alınır.

## Səkkiz hərbçini öldürmüş əsgər 24 il 6 aylıq azadlıqdan məhrum edilib



Rusiyada 8 hərbçini qətlə yetirmiş əsgər Ramil Şamsuddinov 24 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Məhkəmə R.Şamsuddinovu qətldə və qətl törətməyə cəhddə təqsirli bilsə də, bəzi yüngülləşdirici halları nəzərə alaraq onu ömürlük həbs cəzasına məhkum etməyib.

R.Şamsuddinov 2019-cu il oktyabrın 25-də xidmət etdiyi hərbi hissədə odlu silahdan atəş açaraq, 8 hərbçini qətlə yetirib, daha 2 nəfəri yaralayıb. O, cinayət törətməsini hərbi hissədə özünə qarşı zorakılıq olunması ilə izah edib.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600